Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

alman əməkdaşlığı
DEUTSCHE ZUSAMMENARBEIT

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Peşə Təhsili Üzrə Dövlət Agentliyi

EKSKURSİYA RƏHBƏRİ

Implemented by
giz Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ) GmbH

Deutsche Gesellschaft für
Internationale Zusammenarbeit (GIZ) GmbH
Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ)

Şirkətin oturum yeri
Bonn və Eşborn (Eschborn)
Qəbələ, İsmayıllı və Qax rayonlarının kənd təsərrüfatı və turizm sahələrində Dual Peşə Təhsili və Təlimi pilotların yaradılması (EDVET) layihəsi
Qış Parkı Plaza
Rəsul Rza küçəsi 75, 201-ci ofis
Tel. +994 (12) 599 91 20-25
Fax. +994 (12) 599 91 26
Email info@giz.de
https://www.giz.de/en/worldwide/367.html

Çap edilib
Fevral 2019

Müəlliflər
Səbinə Cahangirli, Balıyeva Ayşat

Məzmun və dizayn
Quliyev Elmir
T. +994 51 829 68 10
guliyevproduction@gmail.com

Bu dərgi Avropa İttifaqının (EU) maliyyə yardımı ilə hazırlanmışdır. Sənədin məzmununa görə Seft Consulting məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul edilə bilməz.

“Qəbələ, İsmayıllı və Qax rayonlarının kənd təsərrüfatı və turizm sahələrində dual peşə təhsili və təlimi pilotların yaradılması (EDVET) layihəsi“ Avropa İttifaqı (EU) və Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin (BMZ) maliyyə dəstəyi ilə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) “Cənubi Qafqazda özəl sektorun inkişafı və peşə təhsili və təlimi regional proqramı” (PSD TVET) tərəfindən həyata keçirilir.

Açıqlama: Hazırki dərginin məzmununa və orada ifadə olunmuş fikirlərə görə EU, BMZ və GİZ məsuliyyət daşımır.

Qeyd 1: Bu kurikulumun hazırlanmasında müvafiq peşə standartından istifadə edilmişdir.
Qeyd 2: Dərgidə istifadə olunan şəkillər açıq mənbələrdən götürülüb.

MÜNDƏRİCAT

Giriş 4

"Ekskursiya Rəhbəri"modulunun spesifikasiyası 5

Təlim nəticəsi 1: İcmal ekskursiyanın təşkilini əsaslarını bilir və ekskursiyanin təşkil etməyi bacarır 6

1.1.1. İcmal və tematik ekskursiyaların oxşar və fərqli xüsusiyyətlərini müəyyən edir 6

1.2.1. İcmal ekskursiyanın təşkilini metodoloji əsaslarını sadalayır 9

1.3.1. İcmal ekskursiyanın aparılma mərhələlərini vurğulayır 11

1.4.1. İcmal ekskursiya təşkil etməyi nümayiş etdirir 14

1.5. Tələbələr üçün fəaliyyətlər 16

1.6. Qiymətləndirmə 16

Təlim nəticəsi 2: Tematik ekskursiyaları bilir və təşkil etməyi bacarır 18

2.1.1. Tarixi ekskursiyaları təşkil edir 18

2.2.1. Memarlıq və şəhər salma ekskursiyasının aparılma texnikasını vurğulayır 20

2.3.1. İncəsənətşünaslıq ekskursiyanı məruzə edir 22

2.4.1. Ədəbi, sərgi və muzeylərə ekskursiyanı yerinə yetirir 24

2.5.1. İstehsalat ekskursiyalarını təşkil edir 26

2.6. Tələbələr üçün fəaliyyətlər 28

2.7. Qiymətləndirmə 30

Təlim nəticəsi 3: Turizmin müxtəlif növlərinə uyğun ekskursiyaların təşkilini bacarır 31

3.1.1. Eko turizmin xüsusiyyətlərini müəyyən edir 31

3.2.1. Dağ-xizək turizmin xüsusiyyətlərini vurğulayır 35

3.3.1. Milli parklara qoruqlara yasaqlıqlara ekskursiya təşkil edir 38

3.4.1. Aqroturizm xüsusiyyətlərini göstərir 40

3.5.1. Nostolji,dini ekskursiyanı, ritual, speloo və digər turizm növlərinəuyğun ekskursiyanı hazırlayır 41

3.6. Tələbələr üçün fəaliyyətlər 43

3.7. Qiymətləndirmə 44

Ədəbiyyat 46

GİRİŞ

Azərbaycan turizm sektoru sürətlə inkişaf etməkdədir. Ölkəmiz artıq dünya turistləri üçün cəlbedici məkana çevrilir. Ölkəyə gələn turistlərə yüksək standartlara uyğun xidmətin göstərilməsi isə bir çox faktorlardan asılıdır.

Bu baxımdan turizm-ekskursiya işinin təşkilində ekskursiya rəhbərinin rolunu ayrıca qeyd etmək lazımdır. Ekskursiya xidməti turistlərə təqdim edilən kompleks xidmətin ayrılmaz hissəsidir. Bu, həm yerli turistlər, həm də ölkəmizə gələn xarici turistlər üçün eyni dərəcədə gərəklidir: Turizm sektorunda ekskursiya xidməti mühüm əhəmiyyət kəsb edir.

Bu xidmət informasiya-məlumatlandırıcı, təbliğat vasitəsi olmaqla yanaşı, həmçinin təşkilati, vasitəçi, ticarət, idman-əyləncə, bəzi hallarda operativ-nəzarət fəaliyyətini də əhatə edir. Ekskursiya latın sözü olub, Ekcursio – gəzib dolanmaq deməkdir.Ekskursiya rəhbərinin başçılığı ilə maraqlı və diqqətə layiq yerlərə və digər obyektlərə elmi və ya mədəni maariflənmə məqsədilə edilən gəzintidir. Ekskursiya bizi əhatə edən aləmi əyani dərk etmək prosesidir.Bu proses təbiətdə və qapalı yerdə əvvəlcədən seçilmiş obyektlərə baxış ilə əlaqədardır.Obyektə baxış,danışıqla ahəng təşkil edilməlidir.

Ekskursiya aşağıdakı əlamətlərinə görə seçilir:

- 45 dəqiqədən 1 sutkaya qədər müddətdə davam edir.Bir neçə günlük ekskursiyalar olmur, bu,artıq nəqliyyatda səyahətdir.
- Ekskursiya qrupunun olması (7-30 nəfər) və ya fərdi ekskursiya iştirakçıları(1-7 nəfər).
- İxtisaslı mütəxəssisin ekskursiya rəhbəri olması.
- Ekskursiya obyektləri ilə nəqliyyat hərəkət edərkən və dayananda tanışlıq,həmçinin dayanacaqlarda qrupun nəqliyyatdan düşüb obyektlə birbaşa tanışlığı vacibdir.
- Dəqiq, təyinatlı mövzunun olması,çünki mövzu obyektə baxışın əsas istiqamət vericisidir.

Bu sadalanan hər hansı bir əlamətin olmaması səyahəti ekskursiya adlandırmağa imkan vermir.

"EKSKURSİYA RƏHBƏRİ" MODULUNUN SPESİFİKASİYASI

Modulun adı: Ekskursiya rəhbəri
Modulun kodu: 2
Saatlar və kredit:
Modulun ümumi məqsədi: Bu modulu bitirdikdən sonra tələbə ekskursiyaların anlayışını, mahiyyətini və təsnifatını bilir və ekskursiyaların hazırlanmasını qaydalara əsasən idarə etməyi bacarır.

Təlim nəticəsi 1: İcmal ekskursiyanın təşkilini əsaslarını bilir və ekskursiyanın təşkil etməyi bacarır.
Qiymətləndirmə meyarları
1. İcmal və tematik ekskursiyaların oxşar və fərqli xüsusiyyətlərini müəyyən edir.
2. İcmal ekskursiyanın təşkilini metodoloji əsaslarını sadalayır
3. İcmal ekskursiyanın aparılma mərhələlərini vurğulayır.
4. İcmal ekskursiya təşkil etməyi nümayiş etdirir.

Təlim nəticəsi 2: Tematik ekskursiyaları bilir və təşkil etməyi bacarır.
Qiymətləndirmə meyarları
1. Tarixi ekskursiyaları təşkil edir.
2. Memarlıq və şəhər salma ekskursiyasının aparılma texnikasını vurğulayır.
3. İncəsənətşünaslıq ekskursiyanı məruzə edir.
4. Ədəbi,sərgi və muzeylərə ekskursiyanı yerinə yetirir.
5. İstehsalat ekskursiyalarını təşkil edir

Təlim nəticəsi 3: Turizmin müxtəlif növlərinə uyğun ekskuyiyaların təşkilini bacarır.
Qiymətləndirmə meyarları
1. Eko turizmin xüsusiyyətlərini müəyyən edir.
2. Dağ-xizək turizmin xüsusiyyətlərini vurğulayır.
3. Milli parklara qoruqlara yasaqlıqlara ekskursiya təşkil edir.
4. Aqroturizm xüsusiyyətlərini göstərir.
5. Nostolji, dini ekskursiyanı, ritual, speloo və digər turizm növlərinə uyğun ekskursiyanı hazırlayır.

1.1.1. İCMAL VƏ TEMATİK EKSKURSİYALARIN OXŞAR VƏ FƏRQLİ XÜSUSİYYƏTLƏRİNİ MÜƏYYƏN EDİR

TEMATİK EKSKURSİYALAR

Ekskursiyanın keçirilmə formasına görə icmal və tematik ekskursiyalar daha geniş yayılıb.

Tematik ekskursiya konkret bir mövzuya aiddir və bu mövzuya aid maksimal miqdarda obyektlər turistlərə nümayiş etdirilir. Bu obyektlər haqqında ətraflı və əsaslı məlumat verilir. Tematik ekskursiyalar bir neçə qrupa bölünə bilər:

- **Tarixi**
- **İstehsalat və iqtisadiyyat**
- **Təbiətşünaslıq**
- **Ədəbiyyat**
- **Memarlıq –şəhərsalma**

İcmal ekskursiyalar

İcmal ekskursiyaları çoxplanlı da adlandırırlar. Çünki, bu ekskursiyada həm tarixi, həm də müasir materiallardan istifadə olunur. Burada müxtəlif obyektlər nümayiş etdirilir. Bütün şəhər üzrə icmal ekskursiyalar, hazırlandığı yerdən asılı olmayaraq, quruluşuna görə oxşardırlar. Onların hər biri bir qayda olaraq, bir neçə vacib mövzulardan ibarətdir.

Bir planlı icmal şəhər ekskursiyası bir qədər başqa səpkidə hazırlanır. Burada şəhərin tarixi və ya müasir gününün bir tərəfi açıqlanır və ekskursiyanın məzmunu daha tipik nümunələrlə ifadə olunur.

Şəhər üzrə çoxplanlı icmal ekskursiyada, şəhərin tarixi, görməli yerləri, incəsənəti, memarlığı, sənayesinin və elmin inkişafı haqqında geniş və ətraflı məlumat verilir. Çoxplanlı icmal ekskursiya, tematik və bir planlı ekskursiyalardan rəngarəngliyi və çeşidliyi ilə fərqlənir və bir qayda olaraq hər bir şəhər üçün ayrıca tərtib olunur.

Çoxplanlı icmal ekskursiyanın məqsədi, şəhəri tarixən təşəkkül tapmış kompleks kimi, turistlərə təqdim etməkdir. Adları çəkilən ekskursiya tiplərinin hər birinin özünəməxsus xüsusiyyətləri, ekskursiyanın hazırlıq və aparılma tərzi var.

Çoxplanlı icmal ekskursiyanın tərtibi və təşkili nisbətən mürəkkəbdir.Bu tip ekskursiya turistlər üçün daha çox maraq kəsb edir, çünki qısa müddət ərzində şəhərin tarixi və müasir vəziyyəti ilə tanış olur. Əsas çətinlik də şəhərlə bağlı olan geniş və böyük materialı bu ekskursiyada necə yerləşdirmək, optimal marşrutu necə seçmək, turistlərə ilk növbədə nəyi göstərmək, nə ilə tanış etmək, uzaq keçmişə, müasir günə və gələcəyə aid olan, müxtəlif materialları, vahid şəkildə necə əlaqələndirmək, bir-birilə yaxın olan müxtəlif dövrə aid və müxtəlif məna ifadə edən abidələri, obyektləri ekskursiya rəhbərinin nitqində məntiqi şəkildə necə uyğunlaşdırmaqdan ibarətdir.

İcmal ekskursiyanın hazırlanması və aparılmasında yarımmövzuların ardıcıllığı, abidələrin və digər ekskursiya obyektlərin bir-biri ilə qarşılıqlı əlaqəsi böyük rol oynayır.
Şəhər üzrə icmal ekskursiya şəhər haqqında məntiqi ardıcıllıqla tərtib olunmuş və əhəmiyyət kəsb edən abidələrin nümayişinə əsaslanan ekskursiyadı. Bu ekskursiyanın məqsədi, turistlərə şəhərin görünüşünü və obyektlərin xüsusiyyətləri, müasir vəziyyətinin tarixi ilə tanış etməkdir.

İcmal ekskursiyanın hazırlanması və aparılmasında yaımmövzuların ardıcıllığı ,abidələrin və digər ekskursiya obyektlərinin bir-biri ilə qarşılıqlı əlaqəsi böyük rol oynayır. Eyni zamanda qeyd etmək lazımdır ki, turist qrupunun nümayis etdirilən obyektə necə yaxınlaşması və obyektdən alınan təəssürat, ekskursiyanın tərtib edərkən nəzərə alınmalı və bunun metodikasını ekskursiya rəhbəri işləyib hazırlamalıdır.

Ekskursiya rəhbəri aşağıdakı tövsiyyələri nəzərə almalıdır:

1. Marşurutun tərtib olunmasında turist qrupunun yerdəyişməsində vaxta qənaət olunmasına çalışmalı, obyektlərin bir-biri ilə əlaqəsi münasib və rahat olmalıdır.

2. Çalışmaq lazımdır ki, ekskursiya marşurutunun başlanğıc və son məntəqəsi ekskursiyanin xarakterinə uyğun olsun.Başlanğıc məntəqə ekskursiya marşurutu ilə əlaqəli olmalıdır,bütün marşurutun ekskursiya materialını yekunlaşdırmaq və ümumilləşdirmək və bununla da ekskursiyanı son məntəqəsində tamamlamaq mühüm amildir.

Ekskursiyanın tərtib olunması və aparılması yaradıcı iş olmasına baxmayaraq, bəzi hallarda, ekskursiya təcrübəsi prossesində marşuruta dəyişikliklər, əlavələr daxil edilin təkmilləşdirilə bilər.

TƏLİM NƏTİCƏSİ 1

Şəhər üzrə icmal ekskursiyanın hazırlıq **metodikasının** əsas məsələləri aşağıdakılardır:

- İcmal ekskursiyanın tematik qruluşunun müəyyən edilməsi;
- Daha səmərəli marşurutun işlənməsi;
- Ekskursiya obyektlərinin seçilməsi;
- Materialın çatdırılma üsullarının seçimi (nümayiş və nitq).

Ekskursiyanın tərtib edilməsində qayda və ardıcıllığa riayət olunur:

1. Ekskursiyanın əsas mövzularını və onun tematik quruluşunun müəyyən edilməsi;
2. Obyekt və marşurutların ilkin seçimi üçün şəhəri birinci dəfə gəzib nəzərdən keçirmək;
3. Biblioqrafiyanın seçimi;
4. Ədəbiyyatın öyrənilməsi;
5. Ekskursiya obyektlərinin kartotikasının tərtib olunması;
6. Ekskursiya rəhbərlərinin "çantası"nın kompektləşməsi və hazırlanması;
7. Obyektlərin marşurut üzrə bölünməsi və ardıcıllığını təmin etmək üçün şəhəri ikinci dəfə gəzib nəzərdən keçirmək;
8. Marşurutun metodokasını işləyib hazırlamaq;
9. Toplanmış materialları və işlənib hazırlanmış metodika əsasında, ekskursiya mətnini yazmaq;
10. Ekskursiya marşurutunu dəqiqləşdirmək, məntiqi əlaqələrin və ekskursiyaya keçidin müəyyənləşməsi üçün şəhəri bir daha gəzib nəzərdən keçirmək lazımdır;
11. Bütün dayanacaq məntəqələrini göstərməklə,ekskursiya avtobusunun dayanacaqları üçün icazə haqqında DYP-ə məkubla müraciət etmək lazımdır;
12. Metodiki şuranın və ya bölmənin metodistləri ilkin ekskursiyanı dinlməlidir;
13. İcmal şəhər ekskursiyasını,aparacaq bütün ekskursiya rəhbərləri üçün təlim ekskursiyalar təşkil olunmalıdır;
14. Tanışlıq,resenziya və təsdiqlənmə üçün ekskursiya mətni bölməyə təhvil verilməlidir;
15. Təqdim olunan mətn və ya sınaq ekskursiyasından sonra,metodistin müsbət rəyi əsasında,ekskursiya rəhbərinə ekskursiya aparmağa icazə verilir;
16. Hazırlanmış və tərtib olunmuş ekskursiya reklam olunur.

1.2.1 İCMAL EKSKURSİYANIN TƏŞKİLİNİ METODOLOJİ ƏSASLARINI SADALAYIR

EKSKURSİYA METODİKASINA YİYƏLƏNMƏ

Ekskursiya metodikasına yiyələnmə - peşəkarlığın əsasıdır. Ekskursiya – qarşıya qoyulmuş məqsədə nail olunmasına yönəlmiş, bir-biri ilə qarşılıqlı şəkildə bağlı olan və bir-birini şərtləndirən fəaliyyətin məcmusudur. Ekskursiya zamanı fəaliyyət müxtəlif olur və bir sıra amillərlə, o cümlədən, qrupun marşrut üzrə hərəkəti (obyektlərin piyada və ya avtobusla baxışı) marşruta daxil edilmiş abidələrin müşahidəsi, ekskursiya rəhbərinin izahları və s. bağlı olur. Ekskursiya zamanı edilən işlər , ekskursiya rəhbərinin və turistlərin fəaliyyətinə bölünür. Hər iki fəaliyyət növü ekskursiyanın məqsədi ilə birləşir. Ekskursiya rəhbərinin metodikanı yaxşı bilməsi, ekskursiyanın yüksək səviyyədə hazırlanması və keçirilməsinə zəmindir. Ekskursiya metodikası, həm də təsdiq olunmuş qaydalar və tələblər əsasında iş aparmaq bacarığıdır. Ekskursiya metodikasının təyinati ekskursiya iştirakçilarının (ekskursantlar, turistlər) ekskursiya materialını daha yaxşı mənimsəməsinə kömək etməkdir. Ekskursiyanın əsasını obyektlərin nümayişi təşkil edir. Obyektlərin seçiminin düzgün aparılmaması ve nümayiş etdirmə metodikasından bacarıqsız istifadə edilməsi, ekskursiyanın keyfiyyətsiz və nümayiş təəssüratının itirilməsi ilə nəticələnə bilər.

Ekskursiya metodikasının əsas məqsədi – insana obyekt (əşya, hadisə) barəsində mümkün qədər dolğun təsəvvür əldə etməyə kömək etməkdir. Metodikanın tələblərindən biri də biliklərin mənimsənilməsi prosesi kimi ekskursiyanın arası kəsilmədən , yəni ekskursiya materialının bu ekskursiyanın aparılması üçün ayrılmış olan 180 dəqiqə ərzində turistlərə təsirinin təmin olunmasıdır(avtobusla 4 saatlıq praktiki ekskursiyada – 4 akademik saat 4×45 dəqiqə). Bu zaman nümayiş müddəti 180 dəqiqəyə bərabər olmur, eləcə də, danışıq üçün ayrılan müddət də 180 dəqiqədən azdır. Ekskursiyaya bütövlükdə ayrılmış vaxt = nümayiş üçün ayrlmış vaxt + danışıq üçün ayrılmış vaxt + fasilələr.

İstənilən ekskursiyanın bu sxem üzrə qurulması ekskursiya materialının daha yaxşı qavranılmasına kömək edir. Metodika nümayiş və danışıq arasında vacib olan bağlılığı və qarşılıqlı əlaqəni müəyyənləşdirir və bu zaman bir halda onların ahəngini, uyğunlaşmasını, əlaqələnməsini, digər halda onların sıralanmasını, üçüncü halda isə həm bu, həm də digər elementin olmamasını nəzərdə tutur.

Nümayiş və danışıqdan istifadənin 4 variantı məlumdur, onlar demək olar ki, hər bir ekskursiya üçün xarakterikdir.

Birinci variant - nümayiş və danışıq eyni vaxtda gedir- Ekskursantlar haqqında danışılan obyekti müşahidə edirlər.

İkinci variant – Obyekt haqqında yalnız danışılır- tarixi hadisələr söylənilir, şəhərin hər hansı bir müəssisənin səciyyəsi verilir.
Üçüncü variant- obyekt yalnız nümayiş etdirilir- ekskursiya rəhbərinin başçılığı ilə onun(obyektin) müşahidəsi aparılır(öyrənilir, araşdırılır).
Dördüncü variant – nümayiş etdirmə, ya da danışıq olmur- turistlər müstəqil iş aparır(müşahidə edir, aldıqları bilikləri və təəssüratları mənimsəyirlər).
Adı çəkiln variantlardan məharətlə, düzgün istifadə ekskursiya rəhbərindən böyük ustalıq tələb edir.



Daha bir vacib məqam ekskursiya iştirakçılarının və ekskursiya rəhbərinin istirahəti üçün nəzərdə tutulan qısa müddətli fasilədir. Ekskursiya zamanı fasilələrin düzgün sıralanması və onlardan istifadə də mühüm rol oynayan amillərdəndir.

Ekskursantlara çatdırılmasının ən effektiv yollarının, auditoriya ilə iş üsullarının məcmusudur. Ekskursiya rəhbəri metodiki üsullarının təsnifatını dərindən bilməlidir. Bu üsullar özlüyündə bir neçə qrupa bölünürlər ki, bunlar da, ekskursiya rəhbəri ilə ekskursantlar arasında möhkəm əlaqələr qurmaqda ona kömək edir. Bunlar müşahidə edilən obyektə davamlı diqqətə nail olunmasına xidmət edən, diqqəti danışığın üzərində qurmaq, bununla da şifahi informasiyanın daha yaxşı mənimsənilməsinə səbəb olan; ekskursiya materialının görmə qavrayışı vasitəsi ilə vizual şəkildə qavranılmasını təmin edən üsullardır.

Üsulların təsnifatında əsasən iki qrup qeyd edilir:

Nümayiş etdirmə üsulları - obyektlərin müşahidəsinə (öyrənilməsinə, araşdırılmasına) xidmət edən üsullara; obyektin ətraf aləmdən ayrılmasına,habelə onun müəyyən detal və hissələrin bütövlükdə obyektdən seçilməsinə yönəlmiş üsullara; ekskursantların təsəvvürünə, təxəyyülünə əsaslanaraq obyektin xarici görünüşündəki dəyişiklikləri gözlə görülmək məqsədi daşıyan və obyekti lazım olan şəkildə görmək imkanı verən üsullara ayrılır (bu üsul hərəkət-ekskursiya qrupunun obyektə yaxınlaşması və ya əksinə uzaqlaşması üzərində qurulur.

Danışma üsulları isə öz növbəsində, obyektin izahı üzərində qurulmuş, obyektin daxili görünüşünün təsviri əsasında qurulan, ekskursantlarda assosiyasiyalar (şüarda ayrı-ayrı təsəvvürlər arasında əlaqə) yaradan, reportaj üsullarına (bu üsullar müşahidə edilən obyektdə hal-hazırda baş verən dəyişiklikləri başa düşməyə imkan verir) və obyektin incəsənət elmi baximindan təhlilinə əsaslanan üsullara ayrılır. Metodiki üsulların qrupları da mövcuddur ki, bunlarda ekskursiya materialının təqdimatını daha da rəngarəng etməyə, onu canlandırmağa xidmət edən, günün müxtəlif vaxtlarında (səhər-axşam) ekskursiyaların aparılması; ekskursiyanın müxtəlif fəsillərdə aparılması və ekskursant qrupunu tərkibin müxtəlifliyinə hesablanan üsullara ayrılır.

Bununla yanaşı qeyd etmək lazımdır ki, metodiki üsullar ümumi (bütün ekskursiyalara şamil edilən, misal üçün müqayisə üsulu)və xüsusi üsullara (yalnız müəyyən ekskursiyalarda istifadə olunan, misal üçün təbiət ekskursiyaları zamanı meşənin səsini dinləmək üsulu) ayrılır.

1.3.1 İCMAL EKSKURSİYANIN APARILMA MƏRHƏLƏLƏRİNİ VURĞULAYIR

EKSKURSİYA APARILMASININ ƏSAS METODİKİ ÜSULLARI

Hər bir ekskursiya iki əsas elementin uyğunlaşmasına əsaslanır: ekskursiya obyektlərinin nümayişi və obyekt haqqında danışıq. Nümayiş və danışıq vaxt ölçüsü, bütün növ ekskursiyalar üçün eyni deyildir. Danışıq və nümayişin qarşılıqlı nisbəti dəyişməlidir. Bir ekskursiyadakı müəyyən bir obyektin nümayişi zamanı ona sərf olunan vaxta və keçirilmə metodikasına görə, digər obyektin nümayişindən fərqlənir. Belə fərqlənmələr danışıqda da (konkret və ya geniş) ola bilər.

Nümayiş etdirmə əyanilik prinsiplərinin reallaşdırılması prosesi, ekskursiya obyekti ilə və ya eyni zamanda bir neçə obyektlə (məsələn, memarlıq abidəsi və ya memarlıq kompleksi) əyani tanış olma üsulu. Nümayiş etdirməyə, ekskursiya bələdçisinin obyektin mahiyyətinin açıqlanmasına yönəlmiş hərəkəti (və ya hərəkətlərinin toplumu) kimi baxıla bilər.

Obyektin nümayişi,ekskursiyanın baxımlı və təsirli yeridir. Düzgün seçilmiş obyektlər,onların miqdarı, nümayişin ardıcıllığı, ekskursiyanın keyfiyyətinə təsir göstərir.

Obyektin nümayişi ekskursiyaçıların və ekskursiya bələdçisinin məqsədyönlü fəaliyyət sistemidir, ixtisaslı-mütəxəsisin rəhbərliyi altında obyektə baxış keçirilməsidir.

Ekskursiya nümayişi üç elementdən ibarətdir.

a) Ekskursiyaçıların obyekti müstəqil müşahidə etmələri;

b) Ekskursiya bələdçisinin portfelində olan eksponatlarla ekskursiyaçıların tanış edilməsi;

c) Ekskursiya bələdçisinin rəhbərliyi ilə baxışın keçirilməsi (müəyyən metodiki üsulların köməyi ilə)

Obyektlərin nümayişinin 4 növünü yadda saxlamaq və onların ekskursiya qrupunun hərəkəti ilə əlaqəsini bilmək lazımdır.

1. Şəhərkənarı ekskursiya zamanı obyektlərin nümayişi–onların bir yaşayış məntəqəsindən digərinə gedərkən 50-60 km/saat sürətlə hərəkət edən avtobusun pəncərəsindən müşahidəsi;
2. Şəhərdaxili ekskursiya zamanı obyektlərin nümayişi-aşağı sürətlə (20-30 km/saat) hərəkət edən avtobusun pəncərəsindən həmin obyektlərin müşahidəsi;
3. Avtobusun marşurut dayanacağında obyektlərin pəncərədən nümayişi;
4. Obyektlərin bilavasitə müşahidəsi üçün ekskursantları avtobusdan düşməsi ilə müşaiət olunan nümayişi.

- **Nümayiş üçün şərtlər:**

- nümayiş zamanı,dayanacaq yerlərinin düzgün seçilməsi;
- nümayiş üçün daha əlverişli vaxt,mövsüm seçimi;
- müəyyən ekskursiya mövzusu ilə heç bir əlaqəsi olmayan obyektlərdən ekskursiyaçıların diqqətini yayındırmaq imkanı;

- obyektin müxtəlif görünüş nöqtələrindən nümayiş zamanı metodiki üsullardan istifadə məqsədilə ekskursiyaçıların hərəkət etmək imkanının olması;
- ekskursiya bələdçisinin bacarığı və təcrübəsi;
- obyektə baxış üçün, ekskursiyaçıların hazırlıq dərəcəsi.

Obyektlərin xarakteri və yarım mövzunun məzmununun işıqlandırılmasından aslı olaraq danışıq formaları müxtəlif ola bilər.Bunlar ekskursiya arayışı,obyektin təsviri,şərh etmə,izahat vermə,sitat gətirmək kimi formalardır.

• **Ekskursiya arayışı** o deməkdir ki,metodikaya əsasən turistlər avtobusdan düşmür,ekskursiya rəhbəri obyekti avtobusun pəncərəsindən göstərir və əlavə obyektlər haqqında əsas məlumat verir. Ekskursiya arayışında obyektlərin ölçüsü,müəllifi,tikildiyi tarix və s. Barədə məlumat verilir. Ekskursiya arayışı formasına görə yol məlumatına bənzəyir.

• **Obyektin təsviri (səciyyəsi)** bu zaman obyektin xarakteristikası, faktiki material və onunla bağlı olan əsas hadisələr yığcam formada, bir az ətraflı şəkildə turistlərə çatdırır. Avtobus obyektin yanında dayanır və turistlər pəncərədən obyekti seyr edir. Obyektin şərhinə 2-3 dəqiqə sərf olunur.

• **Ekskursiyanı şərh etmə** bəzi ekskursiyalarda istifadə olunur və bu zaman baş veren hadisə barədə məlumat verilir.

• **İzahat vermə** zamanı obyekt haqqında daha geniş məlumat verilir. Obyekt bağlı olan hadisələr nəinki turistlərə çatdırılır, hətta izahatlar verilir. Bu üsuldan əsasən şəhərsalma, memarlıq, istehsalat və təbiətşünaslıq ekskursiyalarında istifadə olunur.

• **Ekskursiya zamanı** sitat gətirmək üçün bədii ədəbiyyata müraciət olunur və müxtəlif misallar gətirilir. Bu sitat və misallar yerində deyilməli, tarixi hadisələri xəyalən təsvir etməyə kömək etməlidir.

• **Ekskursiyada hərəkət** bu ilk növbədə bir obyektdən digərinə piyada, avtobus, teploxodla hərəkət etmək deməkdir. Ekskursiya zamanı obyektə yaxınlaşmaq, nəzərdən keçirmək, obyekt ətrafında gəzib oxumaq, yəni hərəkət etməkdir.

Məsələn, qala divarlarını diqqətlə nəzərdən keçirmək üçün turistlər hərəkət edir.

Hərəkətin ikinci üsullarından, ekskursiyada memarlıq abidələrinə, şəhər magistrallarına,meydan və təbiət yerlərinə baxış zamanı bir metodiki üsul kimi, turist qrupuna imkan verir ki, obyektin xarakterik tərəflərini üzə çıxartsın.

1.4.1. İCMAL EKSKURSİYA TƏŞKİL ETMƏYİ NÜMAYİŞ ETDİRİR

EKSKURSİYANIN HAZIRLANMASI

Ekskursiyanın hazırlanması həm ekskursiya işinin təşkilatçılarından, həm də ekskursiya rəhbərindən yaradıcıllıq tələb edən bir prosesdir. Bu özündə iki mərhələni birləşdirir.

1. Ekskursiya mövzusunun hazırlanması.
2. Verilmiş mövzu üzrə ekskursiya aparılmasına rəhbərin hazırlanması.

Yəni ekskursiyanın hazırlanması yaradıcı qrupa tapşırılır. Mövzunun çətinliyindən aslı olaraq 3-7 nəfər,bəzən isə daha çox ekskursiya işi ilə məşğul olan işçilər daxil olur. Yeni ekskursiyanın hazırlanması ekskursiya və ya turist müəsisəsinin rəhbəri verir.

Ekskursiya hazırlayan yaradıcı qrupun hər bir üzvü ekskursiyanın yarım mövzulardan birini hazırlayır, material toplayır, baxış obyektini seçir və aydınlaşdırır.

Lazımi material toplandıqdan və göstəriləcək obyeklər müəyyənləşdikdən sonra, mətn tərtib olunur və metodik hazırlıq görülür.

Ekskursiyanın hazırlanmasının mərhələləri:

- Ekskursiyanın məqsədini müəyyənləşdirmək;
- Mövzunu seçmək;
- Seçilmiş mövzuya aid ədəbiyyat siyahısını tərtib etmək və obyektləri öyrənmək.
- Ekskursiya marşurutunu tərtib etmək;
- Ekskursiya mətnini hazırlamaq;
- Ekskursiya rəhbərinin “çantası”nı hazırlamaq;
- Metodiki üsullar seçmək;
- Mətn və metodiki işləməni yekunlaşdırmaq;
- Ekskursiyanı qəbul etmək;
- Ekskursiyanı təstiq etmək.

TƏLİM NƏTİCƏSİ 1

Ekskursiya obyektlərinin seçilməsi mühüm məsələdir.

Bu obyektlər turistlərin görmə qavrayışlarının əsasını təşkil edir. Nümayiş əsasında ekskursiya rəhbərinin nitqi formalaşır, mühakimləşir və şərhlər aparılır.

Ekskursiya zamanı obyekt kimi aşağıdalılardan istifadə oluna bilər:

- Tarixi hadisələrlə bağlı xatirə yerləri;
- Binalar və tikililər, həmçinin qalalar və körpülər;
- Xatirə və memorial lövhələr;
- Təbii obyektlər: çaylar, göllər, parklar, qoruqlar;
- Memarlıq və şəhərsalma abidələri,texniki tikililər.

Hər bir obyektdə metodik şöbə pasport və ya kart tərtib olunur. Şəhər ərazisində yerləşən bütün obyektlərə kartoçka tərtib olunmalıdır. Bu yeni mövzuların hazırlanmasını asanlaşdırır və müxtəlif mövzulu ekskursiyalarda eyni obyektlərin istifadəsinə imkan verir

Ekskursiya kartoçkasına geniş xarakterizə olunmuş obyekt haqda qısa məlumatlar daxil edilir. Bu məlumatlar aşagdakılardır:

1. Ekskursiya obyektlərinin adı;
2. Abidə ilə bağlı tarixi hadisələr və onun vaxtı;
3. Obyektlərin yerləşdiyi yer, poçt ünvanı;
4. Yarandığı tarix (inşası və açılış tarixi);
5. Müəlliflərin adı, soyadı (memarlıq, hekəltaraşlıq və rəssamlıq əsərləri);
6. Obyektin təyinatı, müasir dövurdə necə istifadə edilir;
7. Obyektin nəzərə çarpan əlamətləri, stili, səciyyə;
8. Obyektin tarixi;
9. Abidənin dövlət tərəfindən qorunması;
10. Abidədə memorial lövhənin olub-olmaması (onun mətni);
11. Abidə və onunla bağlı əks olunan ədəbiyyat;
12. Obyekt hansı ekskursiyalarda istifadə olunması;
13. Kartoçkanın tərtib olunma tarixi, tərtibatçının soyadı və vəzifəsi.

1.5. TƏLƏBƏLƏR ÜÇÜN FƏALİYYƏTLƏR

- Muzeydə ekskursiya işinin təşkilinin nümayiş etdirin.
- Tarixi ekskursiya hansı yarımqruplara bölünür izah edin.
- Quruplara ayrılın.Ekskursiyaçıların suallarına cavab verilməsi necə qruplaşdırılır hazırlayın.
- Ekskursiyada fasilələr nə zaman baş verməsini izah edin.
- Ekskursiya hansı məqsədləri özündə daşıyır qeyd edin.
- Tematik ekskursiyalar hansı elementlərin uyğunlaşmasına əsaslanırsa izah edin.
- Şəhərkənarı ekskursiyalarda vaxt bölgüsü necə həyəta keçirilir araşdırın.
- Yarımmövzunun açıqlanması vaxtını izah edin.
- Ekskursiya materiallarını haqqında məlumat verin.
- Marşurut üzrə keçirilən ekskursiyanın məqsədini qiymətləndirin.
- Ekskursiya metodikasinin təsrinin üstünlüyünü sadalasın.
- Ekskursiya bələdçisi hansı məsələlərə xüsusi diqqət yetirirsə araşdırın.
- Ekskursiya obyektinə hərəkət istiqaməti hansı göstəricilər əsasında təyin edilir izah edin.
- Şəhərkənarı ekskursiya zamanı bələdçi ekskursiyaçılara hansı məlumatları verməlidirsə nümayiş etdirin.
- Ekskursiya işinin düzgün mərhələlərini sadalayın.
- (Qurup halında).Mövzuya aid ədəbiyyat siyahısını hazırlayın.
- Nəqliyyat ekskursiyaların mərhələlərini izah edin.
- Ekskursiya keçirməsi üzrə tələbləri araşdırın.
- Ekskursiya və səyahətlərin təşkilində turizmin sosial əhəmiyyətini izah edin.
- Obyektlərə daxil olan obyektlərə daxil olan obyektlərin pasportunu araşdırın.
- Ekskursiya daha effektli keçirilməsinə imkan verən göstəricilər haqqında məlumat verin.
- Turizmdə ekskursiyaların təşkilatı problərini izah edin.

1.6. QİYMƏTLƏNDİRMƏ

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

“İcmal və tematik ekskursiyaların oxşar və fərqli xüsusiyyətlərini müəyyən edir.”

- Ekskursiyaçıların yerləşdirilməsi hansı formada həyata keçirilir?

- Ekskursiya bələdçisinə nə zaman təcrübə tələb olunur?
- İcmal ekskursiyaya nələr daxildir?
- Tematik ekskursiyalara nələr daxildir?
- İcmal və tematik ekskursiyanın bir-birindən fərqi?

"İcmal ekskursiyanın təşkilini metodoloji əsaslarını sadalayır."

- Ekskursiyaların keçirilmə metodikası nələrdən ibarətdir?
- Ekskursiya finalı nədir?
- Ekskursiya məlumatlarının əsasını nə təşkil edir?
- Ekskursiya bələdçilərinin əsas nə təşkil edir?
- Piyada ekskursiyalara üstünlüyü nədən ibarətdir?

"İcmal ekskursiyanın aparılma mərhələlərini vurğulayır."

- Ekskursiyanın baxmalı və təsirli yeri nədir?
- Ekskursiyaçıların iştirakı zamanı psixoloji hazırlıq tələb edən ən yüksək emosional an nece müəyyən olunur?
- Ekskursiyada sujet nəyi əks etdirir?
- Ekskursiyaların təşkilinində əlavə xidmətlərə nələr aiddir?
- Sınaq ekskursiyasına nələr daxildir?

"İcmal ekskursiya təşkil etməyi nümayiş etdirir."

- Ekskursiya effektliyi nədən aslıdır?
- Ekskursiyada nümayiş etdirməyə hans göstərici kimi baxıla bilər?
- Ekskursiya zamanı nümayişin əsas şərtləri hansılardır?
- Ekskursiya mövzularının sənədləri harada saxlanır?
- Ekskursiya fəaliyətinin əsasını kimlər təşkil etməlidir?

2.1.1. TARİXİ ABİDƏLƏRƏ EKSKURSİYALARI TƏŞKİL EDİR

TARİXİ KEÇMİŞİN ZƏNGİNLİYİ

Azərbaycanın çoxəsirlik tarixini əks etdirən çoxlu memarlıq və incəsənət abidələri mövcuddur. Alimlər tərəfindən elmi əsaslarla öyrənilmiş bu abidələr turistləri həmişə özünə cəlb etmişdir. Respublikamızın hər diyarı tarixi keçmişi ilə və özünəməxsus xüsusiyyətləri ilə seçilir.

Memarlıq abidələrinə eksursiya təşkil edilərkən ekskursiya rəhbərləri bölgənin tarixini, etnoqrafiyasını, toponimikasını və coğrafi baxımdan yerləşməsini bilməli və müəyyən bilikləri səyahətçilərə çatdırmağı bacarmalıdır.

Şimal Şərq bölgəsinə ekskursiya

Bu bölgə ekskursiya baxımından turistlər üçün tarixi zənginliyi ilə fərqlənir. Qobustan dövlət qoruğu ən qədim insanlar haqqında məlumatı əyani şəkildə səyahətçilərə nümayiş etdirir. Qədim yaşayış məskənləri Şabran, Şamaxı, Quba, Xaçmaz, Abşeron bölgəsi Qafqaz Albaniyasının mühüm yaşayış yerləri olmuşdur. Şirvanşahlar dövlətnin uzun müddət mövcudluğu memarlıq baxımından bu bölgəni zənginləşdirmişdir. Bunlara misal olaraq Şamaxıda Sündi kəndində məscid (X əsr), Buğurd(XII), Gülüstan(XII) qalaları. Abşeronda Qız Nardaran(XII), Ramana(XII) qalaları, Atəşgah(XVII), Nardaranda məscid(XVII).

İçəri Şəhər tarxi ilə tamamilə fərqlənir Tunc dövründən burada yaşayış mövcud omuşşəhərin salınması V əsrə təsdüf edir. İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu 1977 ci ildən qoruq elan olunmuşdur. 2000-ci ildə isə, Qız qalası və Şirvanşahlar saray kompleksi ilə birlikdə UNESCO Ümumdünya irsi Siyahıdan Ümumdünya İrsi Siyahısına daxil edilmiş ilk obyektdir.

Şirvanşahlar Saray Kompleksi

Qız Qalası

Şimal qərb bölgəsinə ekskursiya

Bu bölgə təbiəti kimi zəngin memarlıq abidələri ilə məşhurdur. Qafqaz Albaniyasının paytaxtı Qəbələ qədimliyi və müasirliyi ilə bu diyarda birinci yerdə durur. Şəhər e.ə ıv əsrə aiddir.

Qəbələş əhərində müdafiə təyinatlı qədim qüllə (IX-XI əsrlər), XVIII əsrə aid edilən məscid, İmam Baba məqbərəsi (XVIII-XIX əsrlər), Cümə məscidi, eləcə də böyük tarix-diyarşünaslıq muzeyi vardır. Şəki şəhəri qədim albaniyanın mühüm şəhəri olmuş burada xristianlığın ən qədim məbədi olan Kiş Alban məbədi yerləşir. Digər dövrlərdədə bu günə qədər qalmış Gələsən Görəsən qalası XV əsr, Xan sarayı XVIII əsr, Karvansaray (XVIII-XIX əsr) memarlığı və.s abidələri ilə zəngindir. Qax rayonunda V əsr Qum Alban məbədi, Ləkit kəndində VII əsrə aid yeddi alban məbədi, XVIII əsr İlisu kəndində Sumuq qala, Ulu körpü və Şamil qalası.

Zaqatala rayonunda qədim dövrə aid yaşayış yerləri Pəri qalası, Zaqatala qalası və s. misal göstərmək olar.

Şəki Xan sarayı (Şəki)

Qum Alban məbədi (Qax)

Sumuq Qala (Qax)

Qərb bölgəsi

Bu bölgə ibtidai insanın Azıx adamının aşkar olunduğu diyardır. Qədim Albaniyaya aid yaşayış yerləri, müxtəlif xanlıqların dövründə tikilmiş memarlıq nümunələri ilə seçilir. Lakin əzəli düşmənlərimiz ermənilərin bu bölgənin böyük bir hissəsinə təcavüz etməsi torpaqlarımızın böyük bir hissəsinin işğalına səbəb omuşdur.Bu bölgə turizm baxımından əlverişli olsada lakin hərbi vəziyyət, işğalda qalmış ərazilərimizin tarixi memarlıq abidələri talan olunmasına və dağıdılmasın gətirib çıxarmışdır.Bu siyasi gərginlik bölgənin turizm imkanlarının inişafına mane törədir.



Azıx mağarası (Fizuli rayonu)

Qədim sivilizasiyaların mövcud olduğu avropanın cənub şərqi (İtaliya, Yunanıstan), Afrikanın şimalı (Qədim Misir) və ön asiya (Mesapatomiya ərazisi). Çin, Hindistan kimi şərq ölkələri tarixi abidələrlə zəngindir. Azərbaycan avropa mədəniyyət konvensiyasına qoşulmuş, YUNESKO ilə əməkdaşlıq etmiş və beynəlxalq aləmdə mövqeyimizin güclənməsi turizm potensialını artırmışdır. MDB ölkərində turist qəbuluna görə ön yerdə durur. Bunun əsl səbəbi Azərbaycanın təbiətinin rəngarəngliyi və dövlətimizin turizmin inkişafına diqqətdən irəli gəlir.

Çin səddi (Çin)

Kolizey-Amfiteatr (İtaliya)

Tarixi abidələrə ekskursiyalar təşkil olunan zaman bələdçi və ya ekskursiya rəhbəri tarixi-coğrafi bilikləri bilməli və təhlükəsizlik qaydalarına əməl edərək ekskursiya iştirakçılarını lazımı biliklərlə təmin etməlidir.

2.2.1. MEMARLIQ VƏ ŞƏHƏRSALMA EKSKURSİYASININ APARILMA TEXNİKASINI VURĞULAYIR

AZƏRBAYCAN MEMARLIQ MƏKTƏBLƏRİ

Azərbaycan qədim memarlıq abidələri ilə zəngindir.Bunlardan bəziləri günümüzə qədər gəlib çatmışdır. Hər bir bölgənin özünəməxsus xüsusiyyətlərinin formalaşması məhz memarlıq məktəbləri ilə bağlıdır.Naxçıvan memarlıq məktəbinin ən görkəmli nümayəndəsi Memar Əcəmi,Ş irvan memarlq məktəbinin isə Məsud Davudoğlu olmuşdur.

1. Aran memarlq məktəbi: Azərbaycan memarlıq tarixində bir məktəb kimi ilk dəfə formalaşan Aran memarlıq məktəbi olmuşdur. Azərbaycan Ərəb Xilafətinin tərkibinə daxil olduğu zaman Bərdə böyük və məşhur bir şəhər idi. Burada görkəmli memarlıq abidələrinin tikilməsi haqqında mənbələrdə məlumatlar var. Qədim memarlıq ənənələri ilə islamiyyətdən gələn tipoloji xüsusiyyətlərin birləşməsi nəticəsində formalaşan orta əsr Azərbaycan memarlığının ilk rüşeyimləri

məhz burada özünü göstərmişdir. Bərdədə əmələ gələn memarlıq istiqaməti,ölkədə feodal dövlətlərinin müstəqilləşməsi prosesində,yerli ənənələrin güclənməsi ərəfəsində başlayır. Məhz bu şəraitdə Aran memarlıq məktəbi əmələ gəlməkdə idi. Bərdədəki inşaat texnikası, şəhərsalma ənənələri daha sonra, şübhəsiz ki, Gəncədə davam etdirilir. X əsrdə Gəncədə Şəddadilərin apardığı geniş inşaat işləri bu şəhəri Azərbaycanın ən böyük memarlıq mərkəzlərindən birinə çevirir. Hələ Bərdədə əmələ gəlməyə başlayan üslub cəhətləri Gəncədə daha bariz şəkildə formalaşır.

Bərdə və Gəncə ətrafında formalaşmış Aran memarlıq məktəbi öz təsir dairəsini genişləndirərək demək olar ki, Azərbaycanın bütün orta hissəsinə yayılır. XI əsrdən başlayaraq Beyləqan daha sonra isə Şəmkir də memaqlıq mərkəzlərinə çevrlir. Beləliklə Aran memarlıq məktəbinin əhatə dairəsi xeyli genişlənmiş olur.

2. Naxçıvan – Marağa memarlıq məktəbi: Azərbaycan ərazisində geniş yayılmış memarlıq məktəblərindən biridir. Bu memarlıq məktəbi XI əsrdən formalaşmağa başlamış və orta əsrlər Azərbaycan memarlığının üslub xüsusiyyətlərini müəyyənləşdirmişdir.

Azərbaycan memarlığı tarixinə dair araşdırmalarda ilk dəfə bir memarlıq məktəbi kimi tanınan Naxçıvan - Marağa memarlıq məktəbi olmuşdur. Bunun əsas səbəbi Naxçıvan memarlıq məktəbinə məxsus olan sənətkarların bir çoxunun adını daşıyan kitabələrin dövrümüzə çatmasıdır. 1162-ci il tarixli Yusif Küseyir oğlu türbəsindəki kitabədə memar Əcəmi Əbubəkr oğlu özünü naxçıvanlı memar adlandırır.

3. Şirvan-Abşeron memarlıq məktəbi: Azərbaycan memarlıq tarixində özünəməxsus yeri və əhəmiyyəti olan məktəblərdən biri. Şirvanşahlar dövlətininKəsranilər sülaləsi zamanı möhkəmlənməsi və beləliklə,inşaat üçün əlverişli şərait yaranması yerli memarlıq məktəbinin çiçəklənməsi üçün zəmin yaradır. Şirvanşahlar dövlətinin ərazisi təbii inşaat daşlarıyla zəngin olduğu üçün bu ərazidə hələ qədim dövrdən başlayaraq əhəng daşı bir inşaat materialı və binaların bəzəyində oyma şəklində tətbiq edilən yeganə material idi.

Şirvan-Abşeron memarlığının üslub xüsusiyyətləri daş və onun üzərində tətbiq edilən ornamental oymanın birlikdə təsiri əsasında formalaşmışdır. Gözəl yerli daşın diqqətlə yonulması və onun səthinin hamarlanması Şirvan tikililərinin hörgüsünə xüsusi bir görkəm verir. Belə hörülmüş səthlərin üzərində yerləşdirilən zərif daş oymaları kompozisiyanın gözə çarpan hissələrində mərkəzləşdirilir və öz bədiiliyi ilə diqqəti cəlb edir. Şirvan memarlığının belə bir istiqamətdə inkişafı burada kompozisiyaların sadəliyini müəyyənləşdirmiş,əsas diqqət isə ayrı-ayrı ünsürlərin dürüst şəkildə işlənməsinə verilmişdir.

Memarlıq və Şəhərsalma ekskursiyaları

Bu ekskursiyalar Azərbaycan şəhərsalma tarixinin mühüm mərhələləri ilə tanış edir. Səyahət nəqliyyatla və ya piyada təşkil oluna bilər. Ekskursiyalar qoruqlarda ,müxtəlif tarixi dövrü əks etdirən binalarda həyata keçirilə bilər. Ekskursiya rəhbəri bəzi tarixi binaların ilkin variantını ekskursiya üzvlərinə göstərə bilmədikdə əyani vəsaitlərdən istifadə edə bilər.

1. Memarlıq ekskursiyaları: Ekskursiya rəhbəri olaraq memarlıq üslublarını da səyahətçilərə çatdırmalıdır. Memarlıqda müxtəlif üsullar var bunlara misal olaraq qotik, borokko, dorik, roman və s. Səyahət edən zaman yeni memarlıq abidəsini izləyərkən səyahət iştirakçıları elə yerdə yerləşdirilməlidir ki, obyekt yeni təsurat və biliklər yaratsın.

2. Şəhərsalma ekskursiyaları: Memarlıq mövzulu şəhər ekskursiyaları böyük bir tarixi dövrü,müəyyən dövr memarlıq abidələrini ya da bir memarın yaradıcılığını əhatə edə bilər.Bu ekskursiyaları apararkən memarlıq abidələrinin izahı xronoloji olaraq verilməlidir. Müasir dövrün şəhərsalma haqda məlumat vermək üçün ekskursiya rəhbəri müasir şəhərsalmanın inkişafı və problemləri ilə yaxından tanış olmalıdır.

2.3.1. İNCƏSƏNƏTŞUNASLIQ EKSKURSİYALARINI İZAH EDİR

İNCƏSƏNƏTLİK EKSKURSİYALARI

İncəsənətlik ekskursiyaları turistlərin ən çox maraq göstərdikləri ekskursiyalardandır.Bu ekskursiyalar incəsənətin müxtəlif sahələrinə təşkil olunur ki, onlarda insanlarda estetik zövq və tərbiyə formalaşdırır. İncəsnətlik ekskursiyaları qəlblərdə yatıb qalan gizli hisləri oyatmaqla yanaşı ona öz özlüyündə daha diqqətli dərindən diqqət yetirməyi vadar edir. Ekskursiyanın insanlarda zövq formalaşdırması və başlıca vəzifəsi məhz bundan ibarətdir. Məsələn: sərgilərə edilən ekskursiyalar zamanı nümayiş etdirilən çoxsaylı əsərlər milli elementlərin və müasir incəsənətin müxtəlif elementlərini özündə birləşdirirsə bu isdər isdəməz ekskursiyanın marağına səbəb olar və yaddaşlarda dərin iz buraxar. İncəsənət əsərlərinin nümayişi zamanı rəssamın fırça ilə işlədiyi əsərlərlə yanaşı müxtəlif maraqlı fotoşəkillər iştirakçılar arasında maraq doğurur. Ölkəmizdə olan muzeylər və şəkil qalereyalarına təşkil olunan ekskursiyalar turistlər tərəfindən hər zaman maraqla qarşılanır. Bunlardan S. Bəhlulzadə adına şəkil qalereyasını, Müasir incəsənət mərkəzi və s. göstərmək olar. Ölkəmizin mədəni zənginliyinin Şərq və Qərb mədəniyyətinin mütərəqqi komponentlərini özündə əks etdirən, sərgilər xalqların yaxınlaşmasında və qarşılıqlı anlaşmasının dərinləşməsində vacib rol oynayır. İncəsənətlik ekskursiyalarının əsas komponenti zövqlü və nadir incəsənət nümunələridir.

Muzeylərə ekskursiyalar

Müasir Azərbaycanın hər şəhərini "sənətkarlar şəhəri" landırmaq olar, çünkü hələ qədimdən onların hamısının – xalça ustalararının, zərgərlərin, silah ustalarının, toxuma ustalarının, daş üzərində çalışanların - məşhur sənətkarların mərkəzindən olanlar kimi ölkənin hüdudlarında belə böyük hörməti olmuşdur. Bu gün orta əsrlərdə yaşayan sənətkarların əsərlərinin inciləri dünyanın bütün muzeylərində - Luvrdan (Luvr muzeyi (fransızca Musée du Louvre)) — dünyanın ən məşhur muzeylərindən biri. 1793-cü ildə açılan və sahəsi 60 000 m^2 olan muzey Parisdə yerləşir. Hazırda yerləşdiyi ərazinin sahəsi 160 106 metr^2 olmaqla, dünyada böyüklüyünə görə üçüncü yeri tutur. Bu sahənin 58 470 m^2-ni ekspozisiyalar tutur) başlamış Ermitaja kimi, həmçinin yerli xalq tətbiqi muzeylərindəsaxlanılır. İncəsənət ekskursiyalarında mövzu seçimi digər ekskursiyalarda olduğu kimi xüsusi əhəmiyyət kəsb edir. R.Mustafayev adına İncəsənət Muzeyinə ekskursiya təşkil edilərkən bu muzeyin bədii dəyərləri ilə ilk tanışlıq üçün ümumi icmal vermək və ya "Şəkillərə necə baxmalı" mövzusu üzərində dayanmaq olar.

İncəsənət əsərləri nümayiş etdirilən zaman turistlərin tərkibi nəzərə alınmaqla onların tələbatına uyğun olaraq ekskursiya mövzusu seçilməlidir

Heykəltəraşlıq nümunələrinə ekskursiyalar

Ayrı-ayrı dövrlərdə milli heykəltəraşlıq və memarlıq komplekslərinin qiymətli inciləri yaradılmışdır. Öz dəst-xətti, zəngin bədii ənənələri ilə seçilən Azərbaycan heykəltəraşlığının müasir siması ötən əsrin 20-ci illərindən etibarən formalaşmış və sürətli inkişaf yolu keçmişdir. Bu müddət ərzində şəhər və park heykəltəraşlığının diqqətə layiq abidələri, mühüm ictimai hadisələrin və tanınmış şəxsiyyətlərin şərəfinə bir sıra monumentlər ucaldılmışdır. Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundov, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Cəfər Cabbarlı, Səməd Vurğun və digər sənətkarların milli heykəltəraşlıq xəzinəsini zənginləşdirən möhtəşəm abidələri Bakının memarlıq mənzərəsini ahəngdar şəkildə tamamlamış və ona xüsusi görkəm vermişdir.

Öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikasında ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm işlər görülmüşdür. Respublikamızın hər bir bölgəsində şəhidlərin xatirəsinə abidə-komplekslər ucaldılmışdır.

Xalçaçılıq sənətinin qorunduğu və inkişaf edtdiyi sahələrə ekskursiyalar

Xalçaçılıq, bədii oyma, toxuma, zərgərlik və sairə sənət növləri üzrə nümunələr xalqın bədii zövqü olmaqla bərabər onun məişətinin ayrılmaz hissəsi olmuşdur. Xalçaçılıq sənəti Azərbaycan mədəniyyətinin bir hissəsidir. Azərbaycan xalçasıöz gözəlliyi, keyfiyyəti ilə həmişə seçilmişdir. Azərbaycan xalçaları dünyanın ən məşhur muzeylərində vəşəxsi kolleksiyalarda saxlanılır. Bu gün Azərbaycanda öz gözəlliyi və unkiallığı ilə seçilən Lətif kərimov adına Xalça muzeyi tikilib başa çatmış və maraqlı, nadir eksponatlarıözündə cəmləşdirir.

Teatr sahələrinə ekskursiyalar

İncəsənətin bir növü olan teatr tamaşaları hələ qədim zamanlardan sivilizasiyanın inkişaf etdiyi ölkələrdə estetik və mənəvi tərbiyə baxımından müasir və tarixi mövzularla, teatr xadimləri, akyorlarla görüşlər insanların maraq dairəsində olmuşdur. Teatr tamaşaları bədii yaradıcılıq, canlı ifa, dekorasiya, illüstrasiyaların göstərilməsi baximindan insanın mədəni inkişafına birbaşa təsir edir. Teatr binaların layihələri, eskizləri incəsənət ekskursiyalarının kompozisiyası kimi əyani şəkildə göstərilməklə ekskursiyanı daha maraqlı və dəyərliedir.

2.4.1 ƏDƏBİ SƏRGİ VƏ MUZEYƏ EKSKURSİYANI YERİNƏ YETİRİR

SƏRGİLƏRƏ EKSKURSİYALAR

Ekuskursiya işinin ümumi kompleksində xüsusi yeri sərgilərə təşkil olunan ekuskursiyalar tutur. Bu cür ekuskursiyalar turistlərin elm, iqtisadiyyat, mədəniyyət, kənd təsərrüfatı sahələrinin inkişafında insanların naliyyətləri ilə tanış olmasına kömək edir. Sərgi terminalogiyasınrı nəzərdən keçirək. Sərgi dedikdə zamanın cox kiçik intervalında həyata keçirilən nümayiş prosesidir. Burada muzeydən fərqli olaraq ekspazisiyalar zamana görəkiçik dəyişikliklərə məruz qalır. Sərgi termini geniş anlamda əşyaların işlərin sənət nümunələrinin, kollusiyalarının göstərilməsi kimi proses başa düşülür. Sərgi reklam üçün sənaye və kommersiya mallarının bitkilərin heyvanların incəsənət əsərlərinin kolleksiyalarının nümayişidir. Bədii mədədniyyətin milli təfəkkürün inkişafında əsas rol oynayan muzeylər tarix boyu insan tərəfindən yaradılmış bütün sərvətlərin qoruyucusudur.

Cəmiyyət inkişaf etdikcə insanların dünyagörüşündəki inkişaf o cümlədən elmi fəlsəfi və siyasi görüşlərdəki inkişaf və dəyişikliklər muzeeylərində rolunu ön plana çəkirdi. Muzey elmi tədqiqat və mədəni marif müəsəsi kimi öz sosial funksiyalarına uyğun olaraq tarix mədəniyyət və təbiət obyektlərinin abidələrini komplektləşdirir, qoruyur, öyrənir və xalqa tanıdır. Uşaq və gənclərin dünya görüşünün sənət əsərlərinin düzgün qiymətləndirmək bacarığının formalaşdırılması muzeylərin müxtəlif təhsil ocaqları ilə fəaliyyəti zamanı daha səmərəli olur. Muzeylər məktəblinin tarixi biliklərini daha da əyaniləşdirir. Ədəbi təhsildə çox böyük əhəmiyyə kəsb edən N.Nərimanov, C.Cabbarlı, M.F.Axundov, C.Məmmədquluzadə kimi görkəmli şəxslərin ev muzeyləri ilə tanışlığı onların həyat və yaradıcılığının əlaqəsi daha da dərindən anlamağa müstəqil təhlil etməyə kömək edər.

Muzey Anlayışı

Muzey (yun. μουσεῖον) — tarixi, maddi və mənəvi dəyərlərin saxlandığı, qorunduğu, öyrənildiyi müəssisə. Muzeylər tarixin müəyyən məqamınıözündə yaşadan, ötən əsrlərin müxtəlif olaylarından xəbər verən eksponatları komplektləşdirən, qoruyan, saxlayan, öyrənən, nümayiş etdirən maddi-mənəvi xəzinə sayılır. Muzey əslində elm, maarif müəssisəsidir. Ona sadəcə olaraq qiymətli əşyaların, maddi sərvətlərin saxlanc yeri kimi baxmaq düzgün deyildir.

Muzeylər mahiyyətinə görə müxtəlif təmayüllü olurlar. Məsələn, dövlət, memorial, səyyar, ədəbiyyat, incəsənət, tarix, musiqi, qoruq və s. Qoruq muzeylər adətən açıq havada olan xüsusi memarlıq üslubuna malik qeyri-adi tikililər, abidələr, bulaqlar, məqbərələr, məbədlər, qalalar sayılır. YUNESKO-nun təşəbbüsü ilə 1978-ci ildən 18 may Beynəlxalq Muzeylər Günü kimi qeyd olunur.

Tarixi muzeylərə ekskursiyalar

Tarixi muzeylərə misal olaraq Qobustan yaşayış yeri, Quba soyqırımı ilə əlaqədar olaraq təşkil olunmuş açıq muzeyləri turistlərə göstərməklə həm tarixi keçkişimizi həm də regionda baş verən siyasi hadisələri ekuskursiya iştirakçılarına çatdırmaq mümkün olur.Muzeylərə və xususilədə tarixi memarlıq abidələrinə ekuskursiyaların keçirildiyi vaxd ekuskursiya rəhbəri tərəfindən aktuallığını bu gündə itirməyən obyektlerin və eksponatların xüsusi qeyd edilməsi maraqlı tarixi hadisələr və faktlar haqqında danışmaq bacarığı əsas şərtlərdən biridir.

Muzeyə ekuskursiyaların təşkili nisbətən asandır ekuskursiyanın xarakteri və mövzusu ekuskursiya rəhbərinin ayrılması müvafiq muzeylə əvvəlcədən razılaşdırılmalı,ekuskursiyanın keçirilmı tarixi və saatları şərtləşdirilməli, ilkin ödəniş həyata keçirilməlidir.

Ekuskursiya yerini seçərkən turistlərin tərkibi diqqətlə nəzərə alınmalıdır. Turistlərin

tələbatlarına uyğun olaraq ekuskursiya mövzusunun düzgün seçimi çox vacibdir,nəzərdə tutulan tədbir haqda ətraflı dolğun məlumatın verilməsi bacarıqla həyata keçirilməlidir.

2.5.1. İSTEHSALAT EKSKURSİYALARINI TƏŞKİL EDİR

ÜMUMİ ANLAYIŞ

İstehsalat və ya İstehsal hər hansı bir məhsulun və ya xidmətin yaradılmasıüçün hüquqi şəxsin və fiziki şəxsin təşkil etdiyi fəaliyyət prosesidir. Istehsalat prosesində maşın, mexanizm, alətlər və insan əməyindən istifadə edərək satışüçün məhsul hazırlanır. Bir qayda olaraq istehsalatda böyük həmdə xammaldanhazır məhsul istehsal edilir.

Bu termin ancaq insan əməyinə aid olaraq adi sənətdən yüksək texnologiyalara qədər geniş dairəni əhatə edir. Belə hazır məhsullar sonradan daha geniş istehsalatda digər mürəkkəb məhsulların istehsalıüçün istifadə edilir. Məsələn, gəmi, silah və digər yüksək texnologiyalı mallar. Bir qayda olaraq bazar iqtisadiyyatı mühütündə bir məhsul digər məhsulun buraxılışıüçün mərhələ rolunu oynayır. Həmçinin bazar nünasibətləri özünü tənzimləmə prinsipinə malikdir. Ancaq son dövrlərdə dövlət daha müntəzəm sahibkarlıq prinsiplərini gözləməklə bazar münasibətlərinə müdaxilə etməli olur.

Sumqayıt texnologiya parkı

İstehsalat ekskursiyalarının təşkil olunma qaydası



Sumqayıt texnologiya parkı

İstehsalat ekskursiyası mütəxəsislərin tələblərini ümumtəhsil məktəblərinin, yuxarı sinif şagirdlərinin xüsusi hazırlığının əsas hissəsini təşkil edir. İstehsalat ekskursiyasının hazırlanması və aparılması ilə əlaqədar ekskursiya rəhbəri istehsalatın bir sahəsini seçməli, bu sahəüzrə ixtisasını artırmalı metodikanı öyrənməlidir. Hər bir müəssisədə ekskursiyalara yalnız müəssisənin rəhbərinin əmri və sərəncamı ilə icazə verilir. Ekskursiya rəhbəri təşkilata gələn ekskursiya qrupu ilə tanış olur qrupun tərkibini ümumi-texniki hazırlığını müəyyənləşdirir və qrupun xüsusi marağını öyrənir. Sonra ekskursiya rəhbəri əsas qaydalar və təhlükəsizlik texnikası barədə məlumat

verir. İstehsalat ekskursiyasını aparan ekskursiya rəhbəri çalışmalıdır ki, istehsalat prosesində ekskursantlar ekskursiyanı yaxşı eşitsinlər və görsünlər. İstehsalat ekskursiyasını aparan ekskursiya rəbərinin hazırladığı iki amil mühümdür. İşlədiyi müəssəni mükəmməl bilməli və metodikanı öyrənməlidir.

Qeyri neft sektorunun inkişafı yerli istehsala müsbət təsir göstərir: Azərbaycanın qeyri-neft sektorunun inkişaf strategiyasında məhz turizm sənayesi üzrə tutumlu islahat və layihələrin gerçəkləşdirilməsi başlıca vəzifə kimi qarşıya qoyulub. Dünya iqtisadiyyatında turizm sənayesindən əldə edilən gəlirlərin xüsusi çəkisinin getdikcə artması, bir sıra ölkələrin bu sahəni şərtləndirən ilk onluqda yer almasına çalışması turizmi bir ölkənin daxili inkişaf sferasından çıxararaq əlaqələrin qurulması və möhkəmləndirilməsi istiqamətindəşaxələnən əməkdaşlığa sövq edir. Yüksək turizm sənayesi mədəniyyətinə yiyələnmək istəyi təkcə təhsilin modern inkişafını nəzərdə tutmur. Eyni zamanda təhsil ilə təcrübənin, o cümlədən elmi araşdırmaların qarşılıqlı inkşaf modelini zərurətəçevirir. Bu baxımdan Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) 10 illik fəaliyyəti ərzindəməhz təhsil-tədris-təcrübə-tədqiqat modelində tələbələrin ölkəiçi və xaricdə yerləşən nüfuzlu otellərdə, həmçinin müvafiq strukturlarda 5 və 2 aylıq təcrübə semestrində iştirakına xüsusi önəm verir. Azərbaycanda istehsalın artırılması yerli istehsalat müəssələrinin inkişafından asılıdır.

Müasir istehsalat

İstehsalat öz çərçivəsinə son məhsulun buraxılmasıüçün bütün aralıq mərhələləri toplayır. Bir sıra hallarda “istehsalat” və “istehsal” terminləri eyni anlamda işlənir. Baxmayaraq ki, “istehsalat” termini məhsul buraxılışının təşkilini, “istehsal” termini isə isə prosesi əhatə edir. İstehsalat çox sıx şəkildə mühəndis elmləri və menecerliklə bağlıdır. Onlardakı yeniliklər istehsalın daha səmərəli təşkilinə və xərclərin azalmasına səbəb olur. Son dövrlərdə reklamla yanaşı dizayn məsələsi də böyük əhəmiyyət daşımağa başlamışdır

Azərbaycan Respublikası pezidenti İlham əliyev və Vitse Prezident Mehriban əliyeva Mingəçevir Tekstil fabrikasının açılışı zamanı

Müəssələrə ekskursiyalar

Bu ekskursiya sahəsi geniş və əhatəli olmaqla yanaşı şagirdlərdə ixtisaslarına uyğun maraq formalaşdırır. Peşə təhsili müəssisələrində son dövrlərdə bu işlə əlaqədər xeyli iş görülmüşdür.Məktəb rəhbərləri və müəsisə rəhbərləri arasında sıx əlaqə yaradılmış və şagirdlər müəssisələrdə vəziyyətlə əyani tanış olmaqla yanaşı müəyyən vaxt ərzində şagird vəzifəsində qalmaqla müəssisədə praktika keçirlər.

Prezident İlham Əliyevin heyvandarlıq müəssilərinə baxışı

1. Sənaye obyektlərinə ekskursiyalar: Son dövrlərdə qeyri neft sektoruna olan maraq artmaqdadır. Rayonlarda isehsalın yerli müəssisələrin və kadırların hesabına artırmaslı qarşıda duran məqsədlərdəndir. Azərbaycanda sənayenin əsas inkişaf etdiyi ərazilər Bakı, Sumqayıt, Gəncə, Daşkəsən ərazilərini misal göstərmək olar.

2. Əkin sahələrinə və fermalara ekskursiyalar: Peşə istiqamətindən asılı olaraq ekskursiyalar təşkil edilir.Son dövrlərdə kənd təsərrüfatını inkişaf etdirmək dövlətin başlıca siyasətlərindən biridir. Bunun üçün əkin texnikasına, kənd təsərrüfatının digər avadanlıqlarının xaricdən gətirilməsi və fermerlərə subsidiyalar, lizinqlər yolu ilə satılması təmin edilir. Heyvandarlığın kəmiyyət yox keyfiyyət baxımından inkişaf etdirilməsi üçün xarici dövlətlərlə əməkdaşlıq edilmişdir. Hər bir sahibkarın yeni növ heyvan yetişdirilməsi üçün dövlət sahibkara pul ödəyir. Şagirdlərdə bu sahələrə maraq artırılması üçün heyvandarlıq müəssisələrə, süd zavodlarına, müxtəlif kənd təsərrüfatı sahələrinə ekskursiyalar təşkil edilir.

2.6. TƏLƏBƏLƏR ÜÇÜN FƏALİYYƏTLƏR

- Azərbaycan memarlğının özünəməxsus xüsusiyyətlərini araşdırın;
- Memarlıq məktəblərini quruplaşdırın;
- Memarlıq ekskursiyalarının keçirildiyi yerləri araşdırın;
- Ekskursiya rəhbərinin fəaliyyətini dəyərləndirin;
- Memarlıq və şəhərsalma formalaşarkən müxtəlif xalqların mədəniyyətinin təsirini araşdırın;

- İncəsənətlik ekskirsiyalarını başqa ekuskursiyalardan fərqləndirin;
- Azərbaycanın incəsənətlik əsərləri dünya muzeylərində olma səbəbini araşdırın;
- Məşhur heykəltaraşların əsərlərini araşdırın;
- Xalçaçılıq qədim türklərin incəsənət nümunəsi adlı müzakirə hazırlayın;
- Teatırımızın yaranması və cəmiyyətin formalaşmasında rolunu araşdırın;
- Ən qədim incəsənətlik sahələrini araşdırın və müasir dövrlə əlaqələndirin;
- Sərgi və muzeylərin fərqli xüsusiyyətlərini araşdırın;
- Sərgi və muzeylərin oxşar xüsusiyyətlərini araşdırın;
- Sərgilərə ekskursiya istiqamətlərini müəyyən edin;
- Azərbaycanda mövcud olan muzeylər haqda təqdimat hazırla;
- Ekskursiya rəhbərinin vəzifələrini araşdırın;
- İstehsalat müəssisələrinə ekskursiyaya gedəcək şagirdlərin diqqət edəcəyi təhlükəsizlik qaydalarını araşdırın;
- Dövlətimizdə daxili istehsalı artırmaq üçün alternativ yolları araşdırın;
- Sənaye istehsalı ilə aqrar istehsal arasındakı qarşılıqlı əlaqəni araşdırın:
- Yaşadığınız ərazidəki istehsalat müəssisələrini araşdırın;
- İstehsalat müəssisələrinə ekskursiyaların təşkili məqsədlərini araşdırın.

2.7. QİYMƏTLƏNDİRMƏ

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

"Memarlıq və Şəhərsalma ekskursiyasının aparılma texnikasını vurğulayır"

1. Azərbaycanda hansı memarlıq məktəblərini tanıyırsınız?
2. Şirvan memarıq məktəbi haqda esse hazırlayın;
3. BİBÖ üsulundan istifadə edərək köhnə və yeni öyrənilmiş məlumatları təqdim edin;
4. Naxçıvan memarlığına aid olanları qeyd edin;
5. Şirvan memarlığının özünəməxsus xüsusiyyətlərini qeyd edin.

"İstehsalat ekskursiyalarını təşkil edir"

1. İstehsalat terminin izahı necədir?
2. Qeyri neft sektorunun inkişaf etdirilməsində məqsəd nədən ibarətdir?
3. Sahibkarlığın inkişaf etdirilməsi üçün siz nə edərdiniz?
4. Azərbaycanın xarici ölkələrlə əməkdaşlığını necə dəyərləndirirsiniz?
5. Azərbaycanın hansı sənaye müəssisələrini tanıyırsınız?
6. İstehsalat müəssisələrinə ekskursiya aparılarkən ekskursiya rəhbərinin vəzifələri nədən ibarətdir?

"İncəsənətşunaslıq ekskursiyalarını izah edir"

1. İncəsənətlik ekskursiyaları insanda hansı hisləri formalaşdırır?
2. İncəsənətlik ekskursiyalarının əsas komponentləri nədir?
3. Azərbaycanın hər diyarının "sənətkarlıq məhəlləsi" adlanma səbəbi nədir?
4. Müstəqilliyimizin bərpası incəsənətlik sahəsinin inkişafına necə təsir göstərdi?
5. Milli teatırımızın inkişafı incəsənət sahəsinin genişlənməsinə necə təsir göstərə bilər?

"Ədəbi sərgi və muzeyə ekskursiyanı yerinə yetirir"

1. Sərgilərin keçirilməsində məqsəd nədən ibarətdir?
2. Tarix muzeylərinə ekskursiya etməkdə məqsəd nədən ibarətdir?
3. Ekskursiya yerini seçərkən ekskuriya rəhbəri nələrə diqqət etməlidir?
4. Muzey və sərgilərə ekskursiyalar insanda hansı keyfiyyətləri formalaşdırı?
5. Dünyaca hansı məşhur muzeyləri tanıyırsınız?

3.1.1. EKO TURİZMİN XÜSUSİYYƏTLƏRİNİ MÜƏYYƏN EDİR

EKOTURİZM ANLAYIŞI

Lerikdə şəlalə

Ekoturizm təbiət turizminin xüsusi forması kimi, ətraf mühitə qayğı ilə bağlı termindir. İxtisaslaşmış səfərlər adətən kiçik qruplarla təşkil olunur. Belə səyahətlər zamanı bələdçilər təbiətə məhəbbətlə yanaşmağın, təbii sərvətlərin mühafizəsinin və ətraf mühitin qorunmasının vacibliyinin turistlərə izah etməyə səy göstərir. Həmçinin ekoturizm məqsədyönlü şəkildə təbii ərazilərə ətraf mühitin və yerli təbiətin vəziyyəti ilə daha da dərindən maraqlanmaq bütün bunların daha da dərindən öyrənilməsi və dərk edilməsi məqsədi ilə edilən səyahətdir. Belə səyahətlər zamanı eko sistemin bütövlüyü qorunmalıdır və yerli əhalinin mənafeyinə uyğun təşkil olunmalıdır.

Yerli əhali ilə əməkdaşlıq

Ekoturizm turizm fəaliyyətinin yerli əhali ilə qarşılıqlı əlaqəsidir. Turizmin digər növləri ilə müqayisədə insanlar tərəfindən daha az korlanmış təbii ərazilərdə həyata keçirilir.Bu turizm növü ətraf aləminçirklənməsinə və onun keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Bu turizm növünü həyata keçirən insanlarda xüsusi bacarıq və təcrübə lazımdır.

Ekoturizmin xüsusiyyətləri

Ekotruzmin əsas prinsipləri bunlardır:

1. Təbiətə səyahətdir, səyahətin məqsədi yerli təbiət və adət-ənənələrlə tanış olmaqdır.
2. Səyahət zamanı ekologiyaya qarşı neqativ halların qarşısını almaq lazımdır.
3. Ekoloji marifləndirmə və məlumatlandırma
4. Əhalinin turistik fəaliyyətindən gəlir əldə etməsi

Ekoturizm təbiətə səyahətdir

Turizmlə məşğul olan yerli və xarici mütəxəssislərin qənaətinə görə, ekoturizm üçün Azərbaycan

dünyanın nadir məkanlarından biridir. Xarici mütəxəssislər bunu ilk növbədə azərbaycanlıların qonaqpərvərliyi və bənzərsiz mətbəxi ilə bağlayırlar. “Turistlər evlərini kirayələdikləri yerli insanlarla tezliklə səmimi ünsiyyət yaradır, hətta bir neçə gün ərzində həmin ailənin üzvünə çevrilir, onların həyat və məişəti, adət-ənənələri ilə yaxından tanış olurlar. Nəticədə əhali gəlir, turist isə zəngin təəssürat əldə edir, dincəlir, səyahətindən zövqalır, təbiət də korlanmır”

Bu fikirlər 2010-cu ilin iyun ayında Bakıda təşkil olunmuş beynəlxalq eko region konfransında səslənmişdir. Həmin tədbirdə əsas məqsədlərdən biri ekoturizm üçün geniş imkanlara malik Azərbaycan təbiətindən yararlanmağın yollarını arayıb tapmaq idi. Çünki ölkəmizin dənizi, çimərliyi, qızıl qumu ilə yanaşı füsunkar təbiəti, palçıq vulkanları, vadiləri, sıx meşələri, buz bulaqları, müxtəlif iqlim qurşaqları, habelə 6 milli parkı, 14 dövlət təbiətqoruğu və 20 xüsusi mühafizə olunan zonası var.

Ekoturizm turizmin elə bir növüdür ki, istirahətə gələn xarici qonaqlar məhz yerli əhali ilə təmas qurur, onların evində kirayənişin olur, mətbəxlərindən yararlanır. Yerli əhali də xarici turistin ölkəsi, tarixi və mədəniyyəti, musiqi və mətbəxləri haqqında biliklərə malik olur. Bəzən növbəti il üçün vədələşən turistlər də olur. Mütəxəssislər təbiət turizmi haqqında danışarkən yerli əhalinin bu biznesdən qazancını diqqət mərkəzinə çəkir, bildirirlər ki, bu həm işsizliyin, həm də insanların dövlətdən asılılığının qarşısını alır.

Məsələn, hər yay dünyanın müxtəlif ölkələrindən turistlər Bodruma məhz kabab və saciçi yemək üçün axışırlar.Bu işlə məşğul olan yerli sakinlər hər mövsüm xeyli qazancəldə edirlər.

Əvvəllər turizm deyəndə təsəvvürə ilk olaraq dəniz, qum, çimərlik və günəş, sonra isə kondisionerli otaq gəlirdi. Lakin son illər xarici turistlər ucqar,mənzərəli, təkrarı olmayan yerlərə səyahət etmək, meşələrdə gecələmək, quşların səsini eşitmək, dağlara çıxmaq, təbii bulaqlardan su içmək, bir sözlə, təbiətin qoynunda dincəlmək, ocaq üstə bişən təamlardan dadmaq istəyirlər.

Ona görə də turizmin bu növü artıq dünyanın diqqət mərkəzindədir, ekolojivə iqtisadi baxımdan sərfəli, macəra axtaranlar üçün də maraqlı. Göründüyü kimi, ekoturizm insanlara təkcə dincəlmək deyil, həm də müxtəlif mədəniyyətlərlə, adət-ənənələrlə yaxından tanış olmaq imkanı verir.
Doğrudan da, Azərbaycanın elə dağları, meşələri, şəlalələri var ki, indiyədək ora nəinki xarici turistlərin, heç təbiətşünasların da ayağı dəyməyib. Təbiət yarandığı kimi ecazkar, aşınmamış, təkrarsızdır.

Bir anlığa antik dövrlərə səyahət etsək, Plutarx, Herodot, Ptolomey və Strabon kimiəfsanəvi səyahətçilər bələdçimiz olar. Onların məlumatlarında deyilir ki,
Böyük İpək yolununən fəal "marşrutlarından" biri Qafqaz Albaniyasından keçir. Təbiəti çox əlverişli, havası datəmizdir. İpək yolunun üstü olduğundan həyat burada daim qaynayır, tüccarlar da çox fəaldırlar.Tarixin müxtəlif dövrlərində Azərbaycana səyahət etmiş Marko Polo, Qonzales, Sadko, Övliya Çələbi, Ambrocco, Afanasi Nikitin kimi səyyahlar, tacir və diplomatlar da dünya tarixində

Azərbaycanın layiqli yer tutduğundan və qeyri-adi təbiətindən danışıblar. Antik məlumatlarda qeyd olunur ki, Qafqaz Albaniyasının təbiəti o qədər füsunkardır ki, ilin bütün fəsillərində burada yaşamaq olar. Yeri gəlmişkən xatırladaq ki, xarici mütəxəssislər qış turizmi üçün də ölkəmizi ən uyğun məkan seçiblər.
Ekoturizmdə Azərbaycanın tayı-bərabəri olmayan Şuşa, Laçın və Kəlbəcər kimi əraziləri indi düşmən tapdağındadır. 1988-ci ildə Azərbaycanın Dağlıq Qarabağ vilayətində və ətraf rayonlarında baş verən hadisələr nəticəsində bu yerlərə daxili və xarici turistlərin sayı xeyliazalmış, sonralar isə bu bölgələr düşmən tərəfindən işğal olunduğundan turizm mərkəzləri fəaliyyətlərini dayandırmışlar.

1999-cu ildə Milli Məclisdə “Turizm haqqında” qanun qəbul edilib. Elə həmin il iyulun 27-də ölkə Prezidenti Heydər Əliyev Azərbaycanda “Turizm haqqında” qanunun tətbiqi ilə bağlı fərman imzalayıb. Bu qanun ölkədə turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsində dövlət siyasətinin prinsiplərini və turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirdi. 2001-ci ilin sentyabrından isə ölkəmiz Beynəlxalq Turizm Təşkilatının üzvüdür. YəniAzərbaycan dünya turizm məkanında da yerini və mövqeyini möhkəmlədib.

Azərbaycanda turizmin inkişaf etdirilməsi və turizm ehtiyatlarından səmərəli istifadə etmək məqsədilə dövlət başçısının 2002-ci il 27 avqust tarixli sərəncamı ilə “Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına yardım Dövlət Proqramı” təsdiqolundu. Neçə illərdir ki, ölkəmizdə turizm hər il yüksələn xətlə inkişaf edir. Misal üçün, 2008-ci ildə Azərbaycana gələn turistlərin sayı 1 milyon 300 mini keçmişdir. Bu göstərici hər ilartmaqda davam edir. Azərbaycanda 2009-2018-ci illər üçün qəbul edilən turizm sektorununinkişafı üzrə dövlət proqramı ölkəmizdə yaxın gələcəkdə turizm sahələrinin planlı surətdə inkişaf etdirilməsinə və səmərəli istifadəsinə zəmin yaradır. Ekoloji turizmin inkişafı da qarşıda duran prioritet sahələrdən biridir.

3.2.1. DAĞ XİZƏK TURİZMİN XÜSUSİYYƏTLƏRİNİ VURĞULAYIR

DAĞ XİZƏK TURİZMİN

Bildiyimiz kimi XX əsrin sonlarından etibarən inkişaf etmiş ölkələrin turizm bazarında struktur dəyişiklikləri baş verib .zaman keçdikcə insanlar aktiv istirahətə üstünlük verirlərki,nəticədə də turizm idmanın ayrı-ayrı növlərini özündə birləşdirir. Ekstremal turizmin inkişafıda bu idman növlərinin tarixi ilə sıx bağlıdır. Ekstremaltruzimdə müəyyən risk və təhlükələr olsa da bu nəticə etibari ilə əsrarəngiz bir istirahət deməkdir. Ekstremal turizmin dağ növlərinə alpinizm, speleturizm, buzadırmanma və qayayadırmanma, dağ velosipetində hərəkət, dağ xizəkçiliyi və snoubording aiddir. Dağ xizəkçiliyi daha çox təbii şəraitdən asılıdır. Bu turizm istiqamətinin inkişafı üçün ilin 4-5 ayında qalın qar örtüyünün olması vacib şərtdir. Dağ xizəkçilik kurortlarının üzləşdiyi əsas problemlərdən biri onların mövsümü fəaliyyət göstərməsidir. Mövsümlülük problemini aradan qaldırmaq üçün bu istirahət mərkəzləri süni qar yağdırma maşınlarından istifadə edirlər.

Azərbaycanda Dağ xizək turizminin inkişafı əsasən Böyük Qafqaz dağlarındadır. Bunlara misal olaraq Tufandağ (Qəbələ), Şahdağ (Qusar)

Tufandağ: Kompleks Qəbələ şəhərindən təxminən 4 kilometr aralıda yerləşir. Kanat yolunun və xizəkçilik kompleksinin 8 stansiyadan ibarət olması planlaşdırılmışdır. Birinci stansiya dəniz səviyyəsindən 950 metr, sonuncu stansiya isə 1920 metr hündürlükdədir.

Kompleksinin birinci mərhələsinin açılışı 3 yanvar 2014-cü ildə Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə olmuşdur. Buna qədər isə, ölkə başçısı Qəbələyə etdiyi mütəmadi səfərlər zamanı kompleksə gələrək burada aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşdur. Kompleksdə nəhəng infrastruktur yaradılmış, avtomobil yolunun çəkilməsi, torpaq sürüşmələrinin qarşısının alınmasıüçün mühafizə tədbirləri görülmüşdür.

Kompleksin tikintisinin birinci mərhələsi çərçivəsində 4 kanat xətti tam inşa olunmuş, 10 xizək yolundan beşində inşaat işləri başa çatmışdır. İnşası nəzərdə tutulan 10 enmə zolağının ümumi uzunluğu 18 min metr təşkil edir.

Burada turistlərin istirahətinin təşkili üçün hər cür şəraiti olan restoranlar da yaradılmışdır. Ümumiyyətlə, bu nəhəng istirahət məkanı ilin bütün fəsillərində turistlərə kanat gəzintisinə, qış mövsümündə xizəklə sürüşməyə, xizəkçilik məktəbindən, otel və digər xidmətlərdən istifadə etməyə imkanlar verir.

Bütün dağ-xizək trassası süni qar yaratma generasiya sistemi ilə təchiz edilmişdir. Bütünlükdə kompleks gün ərzində 3000 nəfərə xidmət göstərmək imkanına malikdir.

Burada turistlərin trassa sistemini özlərinə uyğun seçmək imkanlarının olması kompleksin əhəmiyyətini artıran mühüm amillərdən biridir. Belə ki, hər bir qonaq enmə zolağı, maillik vəçətinlik dərəcəsinə görə trassa seçə bilər.

Şahdağ. Şahdağ Qış-Yay Turizm Kompleksinin inşasına 2009-cu ilin sentyabrında başlanılmışdır. Prezident İlham Əliyevin Qusar rayonuna səfəri çərçivəsində bu möhtəşəm kompleksin təməlqoyma mərasimi keçirilmişdir.

Prezident İlham Əliyevin birbaşa tapşırığı ilə Qusar şəhərindən 30 kilometr şimalda, rayonun Dağlıq Alayan kəndi ərazisində yerləşən Şahdağ Qış-Yay Turizm Kompleksində inşaat işləri yüksək standartlara uyğun olaraq həyata keçirilir. Tikinti işlərinin gedişinə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi nəzarət edir.

Şahdağ milli parkının ərazisində salınan bu kompleksin tikintisi Azərbaycanda dağ xizək və digər qış idman növləri ilə məşğul olmaq üçün geniş imkanlar yaradıdır. Kanat yollarının çəkilişi qış turizm kompleksinin əsas infrastrukturlarından sayılır.

Kompleksdə tikinti işlərini yerli və xarici mütəxəssislərdən ibarət briqadalar ən müasir səviyyədə yerinə yetirirlər. Kompleksin baş layihəsi dünyada xüsusilə dağ-xizək mərkəzləri üzrə böyük layihələr həyata keçirən İsveçrə-Avstriya şirkəti tərəfindən hazırlanmışdır.

Kompleksin ərazisində birinci mərhələdə doqquz kanatyolu çəkiləcəkdir. Kanat yollarının çəkilişini bu sahədə böyük təcrübəsi olan Avstriya şirkəti həyata keçirir. İlkinşa olunan 982 metrlik məsafəsi olan liftisə artıq istifadəyə verilmişdir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Şahdağ Qış - Yay Turizm Kompleksinin 2 nömrəli kanat və xizək enişinin açılışında iştirak etmişlər. 27 fevral 2011-ci il tarixində Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kompleksin lift bazasının anbarı ilə də tanış oldular. Dövlət başçısı 2 nömrəli kanat yolunu sınaq məqsədilə işə saldı.

“Şahdağ” Turizm Mərkəz i 2012-ci ildə istifadəyə verilib. Mərkəz Azərbaycanın Böyük Qafqaz dağ silsiləsininə təyində, toxunulmaya nekoloji sistemi və zəngin flora və fauna ilə tanınan Şahdağ MilliParkının yaxınlığındayerləşir.

“Şahdağ” TurizmMərkəzi Azərbaycanda ilk və ənböyük dağ-xizək kurortudur. Layihəyə əsasən gələcəkdə 10-12 üçulduzluotelin, qolf-klubun, 160-180 kottecin, akvaparkın və digər obyektlərin (işçilər üçün evlərin, avtomobil dayanacaqların və s.) inşaası nəzərdə tutulub.

Dağ - Xizək turizmin inkişaf etdiyi ölkələr: İlk öncə dağ turizminin vətəni sayılan avstriyadan başlayaq. Burada mövsüm dekabrdda başlayır may ayının axırlarına qədər davam edir. Hər bir yerli avstriyalı xizək sürməyi yeriməyə başladığı gün öyrənir. Bu isə Avropada dağ-xizək sürmək turizminin mərkəzi olan Avstriya üçün heç də təəccüblü deyil. Terrasda taxtalardan düzəldilmiş və dadlı mətbəxi olan kiçik restoranlar,gecə əyləncələri proqramın bir hissəsidir. Xizək sürən insanların master dərəcəsi olması və ya şassilərdən başlaması vacib deyil.

Skandinaviya ölkələri içərisində ən sakit və dağ-xizək turizm ölkələri içərisində isə ən az qəzaların baş verdiyi ölkələrdən olan Norveçdə mövsüm noyabrın sonlarından başlayır və maya qədər davam edir. Norveçlilər özlərini xizəyin yaradıcısı hesab edirlər. Əfsanəyə inanan bu xalqa görə xizək çubuğunu da onlar yaradıblar. Hətta paytaxt Osloda belə Xolmenkolen dağının trivan istirahət mərkəzində belə siz ailənizlə gözəl vaxt keçirə bilərsiniz. Norveçdə dağ-xizək turizminin bir hissəsi Laplandiya ərazisində yerləşir. Ancaq yolların çox geniş olmaması səbəbindən bura turist cəlb edilməsi baxımından zəifdir. Regionun dörd zonasını özündə birləşdirən Ore özünün tarixi

keçmişı ilə fərqlənir. Burada Ore-byu, Ore-borner, Duved, Turqefel və Edsdallendda xizək sürməyi sevən insanlar üçün çoxlu sayda istirahət mətkəzləri, qış parkları, oteller və restoranları ilə seçilir. Mərkəzdən Ore-byuya gedən funikulyor 100 il əvvəl tikilməsinə baxmayaraq hələdə fəaliiyət göstərir.

Skandinavya ölkələrindən fərqli olaraq **Fransada** mövsüm daha gec, dekabrın ortalarından başlayır və mayın ortalarına qədər davam edir. Fərq həm də qiymətlərdədir. Keyfiyyəti isə heç də bahalı Skandinavyaölkərindən geridə qalmır. Məsələn, Monblan dağlarının ətəyində yerləşən Şimoni Avropanın ən hündür və xizək sürmək üçün ən əlverişli hissəsidir.

İtaliyada da mövsüm dekabr ayından başlayır və qiymətlər Fransada olduğu kimi seçdiyiniz otellərə görə dəyişir. İtaliyada dağ-xizək turizm zonaları Fransa, İsveçrə və Sloveniya ilə qonşu olduğu üçün sərhədlərin harada bitməsi heç kəsə məlum deyil və siz rahatlıqla digər ölkələrin də ərazisinə keçə bilərsiniz.

3.3.1 MİLLİ PARKLARA, QORUQLARA, YASAQLIQLARA EKSKURSİYA TƏŞKİL EDİR

MİLLİ PARKLAR, QORUQLAR VƏ YASAQLIQLAR

Azərbaycanda 13 qoruq, 9 milli park və 16 yasaqlıq vardır. Onlar Azərbaycanın 5,3%-ni təşkil tutur. Qoruqlarda antropogen fəaliyyətə icazə verilmir, ərazidə olan bütün təbii landşaftlar qorunur və elmi təcrübə mərkəzi kimi istifadə edilir. Yasaqlıqlarda isə təbiətin bir və ya bir neçə komponenti mühafizə edilir və çoxaldılır. Yasaqlıqlarda isə bir sıra təsərrüfat işləri aparmaq olar.

Qoruqlarda və yasaqlıqlarda davranış qaydaları:

Hər bir ekskursiya iştirakçısı qoruqlara və yasaqlıqlara gedərkən ilk növbədə təhlükəsizlik qaydalarına əməl etməlidir. Ekskursiya rəhbəri bunun üçün məktəbli, müəssisə işçiləri və yaxud sərbəst şəkildə ekskursiya iştirakçıları olmaq istəyən şəxslər təhlükəsizlik qaydalarına imza atmalı və əməl etməlidirlər. Qoruqlarda müxtəlif bitki və heyvanat aləmi ilə tanış olarkən,zərərli bitkilərə təmas etməməli və heyvanlara zərər verəcək qədər yaxınlaşmamalıdırlar. Ekskursiya rəhbəri hər hansı bir bölgəni gəzmədən öncə hər kəsə təhlükəsizlik qaydalarını bir daha izah etməlidir. Təbiətə səyahət zamanı yana biləcək sahələri qorumalı və ətraf mühiti çirkləndirməməlidirlər.

Azərbaycanda aşağıdakı təbiət qoruqları vardır:

1) Bəsitçay Dövlət Təbiət qoruğu – Zəngilan rayonu ərazisində yerləşir, burada nadir təbii çinar qorunur.

2) Qarayazı Dövlət Təbiət qoruğu, Qazax rayonu ərazisindəyerləşir, qoruqda məhşur Qarayazı meşələrinin təbiət kompleksi qorunur.

3) Qaragöl Dövlət Təbiət qoruğu Laçın rayonu ərazisində yerləşir.
4) Göygöl Dövlət Təbiət qoruğu göygöl rayonu ərzisindəyerləşir. Flora və fauna qorunur.
5) Qızılağac Dövlət Təbiət qoruğu Lənkəran rayonu ərazisində yerləşir burada müxtəlif quş növləri ilə yanaşı məməli heyvanlarda qorunur.
6) İlusu Dövlət Təbiət Qoruğu Qax rayonu ərazisindəyerləsir,flora və fauna qorunur.
7) İsmayıllı Dövlət Təbiət Qoruğu İsmayıllı rayonunda yerləşir, flora və fauna qorunur.
8) Pirqulu Dövlət Təbiət Qoruğu Şamaxı rayonu ərazisindəyerləşir,flora və fauna qorunur.
9) Türyənçay Dövlət Təbiət qoruğu Ağdaş, Oğuz, Yevlax, Qəbələ rayonu ərazisindəyerləşir, flora və fauna qorunur. Arid meşələrinin landşaft kompleksinin qorunması.
10) Zaqatala Dövlət Təbiət qoruğu Zaqatala və Balakən ərazisindəyerləşir. Bu qoruğun yaradılmasında məqsəd meşələrin torpaqqoruyucu və susaxlayıcı xüsusiyyətlərini saxlamaq, aşağı zonada yerləşən əkin sahələrini və yaşayış məntəqələrini seldən qorumaq. Həmçinin bu bölgənin bitki və heyvanat aləmini də mühafizə etmək məqsədi daşıyır.
11) Eldar Şamı Dövlət Təbiət qoruğu Samux rayonu ərazisindəyerləşir. Qoruğun yaradılmasında başlıca məqsəd genetik fondun, bioloji müxtəlifliyin, ekoloji sistemlərin səciyyəvi və nadir təbiət komplekslərinin obyektlərinin dünyada yeganə vətəni olan eldarşamı meşəliyinin təbii vəziyyətini qoruyub saxlamaqdır.
12) Şahbuz Dövlət Təbiət qoruğu Naxçıvan Muxtar Respublikasında yerləşir, zəngin flora və faunası ilə seçilir.
13) Şirvan Dövlət Təbiət qoruğu Salyan və Neftçala rayonlarıərazisindəyerləşir. Y asaqlıq ceyranların, su quşlarının qorunması məqsədi ilə yaradılmışdır.
14) Qobustan dövlət tarixi-bədii qoruğu. Burada flora və fauna ilə yanaşıtarxi keçmişin izləri qorunur. Qoruqda Mezolit dövrünün yaşayış yerləri və qayaüstü rəsmləri qorunur.

Milli parklardan insanların istirahət etməsinə icazə verilir. Azərbaycanda aşağıdakı milli parklar var:
Zəngəzur Ağgöl Milli parkı (Ağcəbədi, Beyləqan), Şirvan Milli Parkı (Salyan, Neftçala), Hirkan (Lənkəran, Astara), Altıağac (Xızı, Siyəzən), Abşeron (Bakı), Şahdağ (Quba, Qusar, İsmayıllı), Göygöl milli parkı (Göygöl). Yasaqlıqlarda isə təbiətin bir və ya bir sıra təsərüfat işləri aparmaq olar.

Aşağıdakı yasaqlıqlar var:
Abşeron, Ağgöl, Qızılça, Daşallı, Bəndovan, Bərdə, Qubadlı, Qusar, Luvand, İsmayıllı, Korçay, Kilə, Laçın, Ordubad, Şəmkir, Şəki, Kiçik Qızılağac. Qoruqların, yasaqlıqların və mili parkların mövcudluğu ölkəmizin torpaq bitki və heyvanat aləminin qorunmasında mühüm rol oynayır.

3.4.1. AQROTURİZMİN XÜSUSİYYƏTLƏRİNİ GÖSTƏRİR

AQROTURİZM

Bu gün Azərbaycanda turizmin bu və digər turizmin növləri ilə yanaşı aqroturizmin inkişafı üçün münbit şərait mövcuddur. Amma bu sahənin inkişaf tempi hələlik digərlərindən zəifdir. Ölkəmizdəaqroturizmi inkişaf etdirmək üçün bu sahədə dünya təcrübəsinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Dünya təcrübəsi göstərir ki, aqroturizm yerli icmaların kənd və rayonların bütünlükdə ölkənin davamlı sosial-iqtisadi və mədəni inkişafında önəmli rol oynayır. Bu turizim növünün digərlərindən fərqi ondan ibarətdir ki, turist üçün vacib olan ehtiyaclar kənddə axtarılır. Mənzərəli ərazilərdə xüsusi turist mərkəzləri yaradılır.Burada turistə tam xidmət paketi (rahatlığı, qidalanma rejimi, mədəni-əyləncəli proqramlar və s. ilə 5 ulduzlu mehmanxana xidmətinə yaxın xüsusi otaqlar təqdim edilir). Həmçinin turistə canlı təbiətlə əlaqə, kəndin məşğuliyyəti və təbii ehtiyyatlarla tanışlıq üçün şərait yaradılır.

Aqroturizmdə turistlərin yerləşdirilməsi üçün dünyada fərqli modellərdən istifadə olunur. Məsələn: İtaliyada əsasən aqroturistlərin fermada və həyatyanı sahələrdə ayrıca otaqda, kənd mehmanxanasında, xüsusi kənd evlərində, tarixi binalarda yerləşdirilməsi təcrübəsinə üstünlük verilir. İngilis dilli ölkələrdə - Böyük Britaniyada, ABŞ, Kanada, Avstraliya, Yeni Zellandiya və Skandinaviya ölkələrində aqroturistlərin qonaq evlərində, pansionatlarda, kiçik həcimli evlərdə yerləşdirilməsinə üstünlük verirlər. Belə yerlər kəndlərdə təbiətin qoynunda olur.

Göründüyü kimi, dünyada mükəmməl və vahid aqroturizm konsepsiyası yoxdur. Amma fakt odur ki, Avropada turizm sənayəsi 30 ildən artıqdır ki, sürətli inkişaf etməkdədir. Halbuki vaxtilə Avropa ölkələrində aqroturizmin rolunu o qədər də yüksək qiymətləndirmirdilər. Hətta İtalya, Fransa kimi ölkələrdə qorxurdular ki, kənd yerlərində aqrobizneslə məşğuliyyət kənd təsərüfatının inkişafına mane olacaq və kəndlilər məhsul istehsalından uzaqlaşacaqlar. Amma bu heçdə belə olmadı. Əksinə, aqroturizmlə məşğuliyyət kənd təsərrüfatının inkişafına təkan verdi. Yəni fermerlər nümunəvi kənd təsərrüfatı müəssisələri yaradaraq əldə etdikləri yüksək nəticələri və bioloji təmiz məhsulları insanlara nümayiş etdirməklə aqroturizm sənayesi yaratdılar. Əldə olunan nailiyyətlər bir çox avropa ölkələrini aqroturizmin inkişafına sərmayə qoyulmasına təkan verir. Qeyd etmək lazımdır ki, aqroturizmin inkişafında yerli hakimiyyətin (bələdiyəllərin, yerli icra orqanlarının) müstəsna rolu var.

Aparılan araşdırmalar göstərir ki, Azərbaycan vətəndaşlarının hələlik bu sahəyə marağı zəifdir. Aqroturizmlə məşğul olan firmalar az saydadır. Bu hal keçmiş sovet ölkələrinin çoxuna xasdır. Halbuki, Azərbaycanda bu sahənin inkişafı üçün kifayət qədər təbiət və təsərrüfat resursları

mövcuddur. Odur ki, xarici təcrübələri nəzərə alaraq ölkəmizdə də aqroturizmin inkişafına diqqət artırmaq gərəkdir. Bunun üçün zəruri infrastrukut aqroturist təsərrüfatının inkişafı üçün idarəetmə mərkəzi, tur agentlər üçün mərkəz və regional səviyyədə məlumat bazası yaradılımalıdır. Bununla da yerli əhalinin əmək təcrübələrinin təbliğinə, kusdar təsərrüfat mallarının turistlərə satılmasına, tarixi abidələrə tanışlığa imkan yaratmaqla yanaşı, kəndlərin inkişafına, kənd əhalisinin gəlirinin daha da artmasına nail olmaq olar.

3.5.1 NOSTALJİ, DİNİ, EKSTERMAL, RİTUAL, SPELEO VƏ DİGƏR TURİZM NÖVLƏRİNƏ UYĞUN EKSKURSİYALARI HAZIRLAYIR

NOSTALJİ TURİZM (ETNİK TURİZM)

Müxtəlif səbəblərdən yurdlarından köç edənlərin, qohumlarının izlərini axtaranların mənəvi ehtiyacı turizmin bu növünü inkişaf etdirir. "Əgər siz hər hansı bir yerə tək məqsəd üçün – keçmişi xatırlamaq üçün gəlmisinizsə, bilin ki, siz nostalji turizmi ilə məşğulsunuz". Artıq bir çox dünya ölkələrində, o cümlədən qonşu Rusiyada həyata keçirilən nostalji turizmi bu sektorda turizm ideoloqlarının yaratdığı yeni termin olsa da, öz müştərilərini tapmaqdadır. Tarixi vətənini görmək, qohumlarını tapmaq, başqa xalqların mədəniyyəti, tarixi yerləri ilə tanış olmaq istəyənlər bu marşrut xətti ilə qrup və ya fərdi şəkildə hərəkət edə bilirlər. Bu məqsədlə səyahətə çıxanlar üçün bütövlükdə agentliklər və ya xüsusi turlar təşkil olunur. Bir çox ölkələrdə məlumat bazaları yaradılır, marşrutlar müəyyən olunur və həmin məlumatlar internet forumlarda yerləşdirilir.

Nostalji (və ya etnik) turizm Qərbi Avropada yaransa da, son illər bir çox rusdilli ölkələri də özünə cəlb edib. Belə səyahətlər zamanı turistlər yerli əhalinin yaşayış tərzini öyrənir, onların həyatı və mədəniyyəti ilə tanış olurlar. Turizmin bu növü bir çox turistlərə öz kökləri haqqında informasiya, həmçinin heç kimə məlum olmayan xalqlar və ya millətlər haqqında bir çox tarixi faktları əldə etməyə imkan verir. Onlara yardım olunarsa, turistlər bəzən öz uzaq qohumlarını tamam özgə ərazilərdə axtarıb tapa da bilirlər. Belə mövzularda turistlərə müxtəlif tarixi axtarışlarla məşğul olan şəxsi detektivlər də kömək edə bilərlər. Maraqlısı odur ki, turizmin bu növü artıq dünyadakı bütün turist axını arasında onuncu yeri tutur.

Bizim ölkəmizdə turizmin bu növü "nostalji" adı ilə tanınmasa belə, insanlarımız uyğun marşrut xətti ilə hərəkət edirlər. Belə ki, onlar turizmin bu növünə çox vaxt özlərinin adət-ənənəsi, torpağa və dəyərlərə bağlılığı, qohum-əqrəbaya, valideynə məhəbbət nöqteyi-nəzərindən yanaşırlar. İnsanlar doğulduqları yerləri, qohumlarının, valideynlərinin məzarlarını ziyarət edərkən bunu heç

turizmlə əlaqələndirmirlər. Ancaq təcrübələr göstərir ki, turizmin inkişaf yollarından danışılan bir dönəmdə insanların tələbatına uyğun marşrutların da yaradılmasına ehtiyac var. Azərbaycan anlayışı tarixən böyük əraziləri əhatə etmiş lakin yadelli basqınlarl böyük imperiyaların Azərbaycana maraqları yurdumuzun parçalnmasına gətirib çxarmışdır. Beləki ən böyük ayrılıq Gülüstan (1813) və Türkmənçay (1828) sülh müqavilələri imzalandıqdan sonra xalqımız bir birindən ayrı qaldı. 1941-45 Böyük Vətən müharibəsi zamanı xalqın igid oğul və qızları itkin düşdü və yaxud muhacirət yaşamağa başladı zaman-zaman ayrı qalmış qohumlar nəsillər bir-birini axtarmağa başladılar. Və son dövrlərdə bu iş daha da sürətləndi

Dini turizm hər hansı bir dini mərasimlərin, misiyaların, ibadətlərin yerinə yetirilməsi məqsədi ilə həyata keçirilən səyahətdir. **Su turizmi** - çaylarda, kanallarda, göllərdə, dənizlərdə üzən teploxodda, yataxda və çay dəniz gəmilərinin digər növlərində səyahətdir. İxtisaslaşmış turizm-hər hansı bir yerin spesifik xüsusiyyətlərini öyrənmək, fərdi təcrübəsini artırmaq, idman normativlərini yerinə yetirmək, aktiv istirahət və digər ixtisaslaşmış tur alan turistləri müəyyən etmək üçün istifadə olunan termindir. **Məqsədli turizm** müxtəlif kütləvi tədbirlərdə təşkil olunan turizmdir. Xüsusi məqsədli turizm-ictimai tədbirlərdə iştirak etmək üçün həyata keçirilən səyahətdir. Ekoturizmtəbiət turizminin xüsusi forması kimi ətraf mühitə qayğı ilə bağlı turizmdir.Kəndli fermer turizm-fəaliyyətdə olan fermaların turizm fəaliyyətininn ayrı növlərindənəlavə gəlir götürmək məqsədi ilə bağlı turizmdir. **Kənd turizmi** - turistlərin kənd yerlərinə müvəqqəti səfəridir.Macəra turizmi fiziki cəhətdən çox ağır çox vaxt isə həyat üçün təhlükəli olan anlayışdır. **Etnik və ya nostalji turizm** - beynəlxalq turizmdə əhəmiyyətli yer tutan qohumlarla görüşmək və ya valideynlərin anadan olduqları ata-baba yurduna səyahət etməklə bağlı olan turizm növüdür. **İşgüzar turizm** - işgüzar məqsədlə edilən səfərdir. **Elm və ya konqres turizm** - Müxtəlif konqreslərdə, sinfoziumlarda, yığıncaqlarda iştirak etmək məqsədi daşıyan səyahətdir. Müalicə məqsədli səfərlər - bu fərdi səyahət növüdür. **Rekresiya turizmi** - istirahət və müalicə məqsədi ilə həyata keçirilən səyahətdir.

Esktermal Turizm

Ekstremal turizm aktiv həyat tərzi keçirmək və səyahət etməyi sevmək, təbiətin və dünyanın ekstremal imkanlarını sınaqdan keçirməkdir. Hazırda bu idman növü sürətlə inkişaf edir vəətrafında olduqca böyük infrastruktur formalaşdırmaqdadır.



Ritual Turizm – hər hansı bir ayin və mərasim keçirilməsinin nizama salınmış formasıdır. Ritual latın sözü "titus"-dan törəyib "Müqəddəs adət" deməkdir. Ritual səyahətlər müxtəlif xalqların öz dini ayin və başqa mərasimlərini həyata keçirmək üçün etdiyi səyahətdir. Bu səyahətlər müxtəlif məqsəd və xüsusiyyətlərinə görə fərqlənirlər.

Dini ayin həyat vəölümün, gündüz və gecənin bir-birini izləməsi, göy cismlərinin hərəkətləri və fəsillərin ardarda gəlişi kimi, bizə görə təbii yaradılışlar kimi olan şeylərdə üzə çıxan inanılmaz və möcüzəvi yerlərdə baş verir. Bəzi ayinlər vardırki bizlər bunları "Tabu" kimi qəbul edirik.

Buna görə də bəzi insanlar bu ayinləri elə yerindəcə görmək üçün bəziləri də ayini yerinə yetirmək üçün Ritual səyahətəçıxırlar. Turistlərə daha maraqlı gələn rituallardanbəzisiiaşağdakıdır:

Bu ritual "Bungee Jumping" idmanı kimidir, amma istifadə edilən material üzüm sarmaşığıdır. Məqsəd ölümə ola bildiyi qədər yaxın olmaqdır. "Vanuatu" cəmiyətində yaşayan kişilərin məqsədi başlarını səthə dəydirmək və sağ qalmaq.

Speleoturizm. Speleoturizm təbii mağaralar, maneələr və yeraltı zolaqları müxtəlif xüsusi sürsatlardan (kəndir, akvalanq, şəxsi siğorta avadanlığı) istifadə edərək səyahət etmək anlamını daşıyır. Speleoturizmin səciyyəvi xüsusiyyətləri onun marşrutlarının mürəkkəbliyində və ekspedisiyanın çox uzaq və ekstremal yerlərə səyahət etməsindədir.

3.6. TƏLƏBƏLƏR ÜÇÜN FƏALİYYƏTLƏR

- Ekoturizm anlayışını qrup şəklində izah edin;
- Azərbaycan ekoturizm üçün əlverişli olmasını faktlarla izah edin;
- Dövlətimizin ekoturizmin inkişafı üçün gördüyü tədbirləri araşdırın;
- Ekoturizmin xüsusiyyətləri haqda məlumat toplayın;
- Ekoturizmin xüsusiyyətlərini bölgələr üzrə qruplaşdırın;
- Dağ-xizək turizmin digər turizmdən fərqli xüsusiyyətini izah edin;
- Azərbaycanda Dağ-Xizək turizmin potensialını araşdırın;
- Dünya ölkələrində bu turizm sahəsinin inkişaf etdiyi ölkələri araşdırın;
- Azərbaycanda Tufandağ və Şahdağ qış turizmin inkişaf perespektivlərini izah edin;
- Avropa ölkələrində bu turizm sahəsinin inkişafının səbələrini izah edin;
- Qoruq anlayışını izah edin;

- Yasaqlıq anlayışını izah edin;
- Qoruq və yasaqlığın oxşar və fərqli xüsusiyyətlərini qeyd edin;
- Təbiətə səyahət zamanı təhlükəsizlik qaydalarını izah edin;
- Azərbaycanın tarixi memarlıq və təbiət qoruğu haqda təqdimat hazırla;
- Aqroturizm anlayışını izah edin;
- Azərbaycanın bölgələrinin aqroturizm inkişafında kənd əhalisinin gəlirnə təsiri adlı esse yazın;
- Dünya ölkələrinin aqroturizmin xüsusiyyətlərini izah edin;
- Azərbaycanda bu turist sahəsinin inkişaf etdirilməsi yollarını araşdırın.

3.7. QİYMƏTLƏNDİRMƏ

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

"Ekoturizmin xüsusiyyətlərini müəyyən edir"

- Ekoturizm nədir?
- Azərbaycanda turistlərin axın sxemi statistikaya görənecə dəyişir?
- Turizm haqqında qanun nə vaxt qəbul olunub?
- 1988-ci ildən bəri davam edən erməni təcavüekoturizmə necə təsir göstərmişdir?
- Qədim dövrdə səyahətçilərin Azərbaycan haqda fikirləri necə idi?

"Dağ xizək turizmin xüsusiyyətlərini vurğulayır"

- Ekstermal turizmin hansı növləri var?
- Dağ xizəkçiliyin inkişafı üçün hansı amillər mühüm rol oynayır?
- Dövlətimizin bu turizm sahəsinin inkişaf etdirilməsi üçün hansı tədbirlər görmüşdür?
- Dağ-xizək turizmin vətəni hansı ölkədir?
- Avropanın şimal hissəsində dağ-xizək turizmin inkişaf etmə səbəbi nədir?
- Dağ –xizək turizm inkişafı ekologiyaya,flora və faunaya necə təsir göstərə bilər?
- Yaşadığınız bölgənininekoturizm imkanlarını necədəyərləndirirsiz?

"Milli parklara, qoruqlara, yasaqlıqlara ekskursiya təşkil edir"

- Hansı Azərbaycan qoruqlarını tanıyırsınız?
- Qoruq və yasaqlıqlara ekskursiyaların təşkil olunmasında məqsəd nədən ibarətdir?

- Ekskursiya rəhbəri olsaydınız səyahətçilərə hansıtövsiyyə verərdiniz?
- Hansı milli parkları tanıyırsınız?

“Aqroturizmin xüsusiyyətlərini göstərir”

- Aqroturizm nədir?
- Kənd təsərrüfatı və heyvandarlığın inkişaf etdirilməsiaqroturizmə necə təsir göstərir?
- Yaşadığınız regonunaqroturistikehtiyyatları haqda nə bilirsiniz?
- MDB ölkələrindəaqroturizmin zəif inkişaf etmə səbəbi nədir?
- Bu turizm sahəsinin yüksək inkişaf etdiyi ölkələr hansılardır?

ƏDƏBİYYAT

1. Beynəlxalq Turizm Coğrafiyası
2. Müzəffər Ağakerimov – Ekskursiya
3. Ş.Ə.Heydəov " Turizmdə nəqliyyat xidmətlərinin təşkli"
4. S.Rəhimov "Turizm – Ekskursiya işinin təşkili"
5. M.M.Ağakərimov, S.İ. Babazadə "Ekskursiya və ekskursiya rəhbəri"
6. Beynəlxalq jurnal "Turizm və qonaqpərvərlik tədqiqatları"
7. Prezident kitabxanası "Azərbaycan turizmi: bu gün və sabah"
8. Ə.Cabbarov "Turizm marşurutları və ekskursiya işinin təşkili"
9. S. Yeganlı , B.Bilalov "Turizm"
10. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi "Turist ekskursiya xidmətlərinin sertifikatlaşdırılması" – Hüquqi normativ sənədlər
11. E.İsmayılova "Tarixi və mədəni turizm"
12. İnternet resusları